Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 164 (7891) CÜMƏ AXŞAMI, 26 iyul 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiymәti 40 qəpik





## Müstəqil siyasətin qətiyyətli ifadəsi

*İlham Əliyevin son iki həftədə keçirdiyi mühüm görüşlər Azərbaycanla Avropa İttifaqı arasında yeni sazişin imzalanması ilə bağlı aparılan danışıqlara töhfə verdi*

Müstəqil Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri, təbii ki, Avropa İttifaqı ilə tərəfdaşlıqdır. Son 15 ildə həyata keçirilən müstəqil siyasət, milli maraqlara əsaslanan uğurlu diplomatiya sayəsində Azərbaycan qlobal məkanda strateji əhəmiyyətli dövlətə çevrilib. Bunun nəticəsidir ki, Azərbaycan Avropa İttifaqı ölkələri ilə əməkdaşlıqda böyük təcrübəyə malikdir. Ölkəmiz demək olar ki, qurumun üzvü olan dövlətlərin üçdə biri ilə strateji tərəfdaşlıq haqqında saziş imzalayıb. Bununla yanaşı, Azərbaycan Avropanın enerji təhlükəsizliyi və təchizatının şaxələndirilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Bütün bunların isə Avropa İttifaqı ilə Azərbaycan arasında yeni sazişin imzalanmasına müsbət təsir göstərdiyini əminliklə söyləyə bilərik.

### Avropa İttifaqı iqtisadiyyatımıza 20 milyard dollardan çox investisiya yatırıb

Ötən ilin fevral ayından Azərbaycanla Avropa İttifaqı arasında imzalanacaq yeni sazişlə bağlı fəal danışıqlara başlanılıb. Noyabrın 24-də Şərq Tərəfdaşlığı Sammitində çıxış edən Prezident İlham Əliyev Avropa İttifaqının Azərbaycanın əsas ticarət tərəfdaşı olduğunu və idxal-ixracatın 50 faizinin üzv ölkələrlə olan ticarətin təşkil etdiyini vurğuladı: “Müstəqillik dövründə Avropa İttifaqından Azərbaycan iqtisadiyyatına 20 milyard dollardan çox investisiya yatırılıb. Bu, bizim yaxşı investisiya mühitinə malik olduğumuzu nümayiş etdirir. Avropa şirkətləri bizim iqtisadiyyatımızı dəstəkləmək üçün çox maliyyə vəsaiti yatırmağa hazırdır. Eyni zamanda, biz üzv dövlətlərlə ikitərəfli formatda əlaqələrimizi fəal şəkildə inkişaf etdiririk. Azərbaycan Avropa İttifaqına üzv 9 ölkə ilə strateji tərəfdaşlıq bəyannamələri qəbul edib. Bu, o deməkdir ki, Avropa İttifaqına üzv ölkələrin üçdə biri Azərbaycanı strateji tərəfdaş hesab edir. Bu, gənc müstəqil ölkə üçün çox vacibdir və əlbəttə ki, biz Avropa İttifaqı ilə Azərbaycan arasında gələcək razılaşmanı strateji əlaqələrin gücləndirilməsində daha bir mühüm mərhələ hesab edirik”.

### “Tərəfdaşlıq prioritetləri” əlverişli imkanlar yaradacaq

Son iki həftə ərzində Azərbaycanın siyasi həyatında baş verən proseslər yeni sazişin imzalanması istiqamətində aparılan danışıqlara böyük töhfə verdi.

Öncə Prezident İlham Əliyev iyulun 11-də Brüsselə səfər edərək Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskla görüşdü. Azərbaycan ilə Avropa İttifaqı arasında siyasi, iqtisadi, energetika, nəqliyyat və digər sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində artan rolu və bu yaxınlarda rəsmi açılışı olan TANAP layihəsinin bu məsələdə böyük əhəmiyyəti vurğulandı. Eyni zamanda, Azərbaycanın yerləşdiyi regiondakı vəziyyət, regional təhlükəsizlik və çağırışlar haqqında da fikir mübadiləsi aparıldı.

Görüşdən sonra “Tərəfdaşlıq prioritetləri” sənədinin paraflanma mərasimi oldu. Bu sənədin Azərbaycan-Avropa İttifaqı tərəfdaşlıq əlaqələrinin gələcək inkişafı üçün yeni imkanlar açacağını müəyyənləşdirdi.

“Tərəfdaşlıq prioritetləri” 2018-2020-ci illəri əhatə edir və tərəfdaşlığın bərabərhüquqlu, qarşılıqlı xarakter daşıdığını özündə əks etdirir. Bu sənəd Avropa İttifaqı və Azərbaycan arasında ikitərəfli gündəliyə yeni təkan vermiş oldu.

### İtaliya imzalanacaq yeni sazişlə bağlı danışıqlarda fəal rol oynayır

Ötən həftə Prezident İlham Əliyevin Avropa İttifaqının üzvü olan iki böyük dövlət - İtaliya və Fransa prezidentləri ilə keçirdiyi görüşlər, imzalanan sənədlər də Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün yeni imkanlar yaratdı.

İyulun 18-də İtaliya Prezidenti Sercio Mattarella Azərbaycana səfər etdi və bu ölkənin respublikamıza rəsmi səfərə gələn ilk dövlət başçısı kimi tarixə düşdü. Bakıda Azərbaycan-İtaliya biznes forumu baş tutdu, yeni sənədlər imzalandı və bəyan edildi ki, İtaliya Azərbaycanın birinci ticarət tərəfdaşıdır.

Onu da vurğulayaq ki, İtaliya hazırda ATƏT-in sədridir. İki ölkə arasında olan strateji tərəfdaşlıq münasibətlərini əsas gətirən Sercio Mattarella da bəyan etdi ki, İtaliya ATƏT-də sədrliyi çərçivəsində Azərbaycana öz töhfəsini verəcək.

Nəzərə alaq ki, İtaliya Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanacaq sazişlə bağlı danışıqlarda çox fəal rol oynayır. İki ölkə arasındakı strateji tərəfdaşlığın yeni inkişaf mərhələsinə qədəm qoymasına, yeni sazişin imzalanmasına öz töhfəsini verəcək.

### Fransa ölkəmizin Aİ ilə münasibətlərinin inkişafında maraqlıdır

İyulun 19-da isə İlham Əliyev Fransa Prezidenti Emmanuel Makronun dəvəti ilə bu ölkədə ikigünlük işgüzar səfərdə oldu. İki ölkə arasında bir neçə mühüm sənəd imzalandı.

Dövlət başçısı bu ölkənin dünyaca məşhur 11 şirkətinin nümayəndələri ilə görüşlər keçirdi və bu görüşlərdə ölkəmizin neft-qaz sənayesi, energetika, ekologiya, nəqliyyat, təhlükəsizlik və digər müxtəlif sahələrinin inkişaf istiqamətlərindən söz açıldı, həmçinin bəzi sahələr üzrə əməkdaşlıq məsələləri müzakirə edildi.

Əlbəttə ki, Azərbaycan Prezidentinin Fransaya səfəri ikitərəfli iqtisadi, siyasi və humanitar əməkdaşlıq əlaqələrinin yeni səviyyəyə yüksəlişi üçün mühüm əhəmiyyətə malikdir. Onu da nəzərə alaq ki, Fransada böyük erməni lobbisi fəaliyyət göstərir. Prezident İlham Əliyevlə fransalı həmkarı arasında şəxsi münasibətlərin pozitiv məcrada dərinləşməsi əlbəttə ki, erməni lobbisini təşvişə salmaya bilməzdi. Çünki bu görüşün həm Azərbaycanla Avropa İttifaqı arasında yeni sazişin imzalanmasına, həm də ATƏT-in Minsk qrupu həmsədri olan Fransanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair münasibətinə müsbət mənada təsirsiz ötüşməyəcəyi hər kəsə bəllidir. Təbii ki, bu da təkcə Fransadakı erməni lobbisini deyil, Ermənistanda da ciddi narahatçılıq yaratmış oldu. Hətta erməni KİV-i Fransanı Azərbaycanla yaxınlaşmaqda günahlandıraraq öz qorxularını gizlədə bilmədilər.

### Yeni saziş siyasi, iqtisadi və humanitar sahələri əhatə edəcək

Azərbaycan və Avropa İttifaqı arasında 1996-cı ildə imzalanmış “Tərəfdaşlıq və əməkdaşlıq haqqında” saziş ikitərəfli münasibətlərin hüquqi bazasının formalaşdırılması baxımından da vacib əhəmiyyət daşıyıb. Qurum Azərbaycana regionun lider dövləti kimi yanaşır və respublikamızda həyata keçirilən iqtisadi-siyasi və hüquqi islahatları yüksək qiymətləndirir.

Hazırda isə Azərbaycan Avropa İttifaqı ilə yeni tərəfdaşlıq sazişi üzərində işləyir. Bu saziş bir sıra sahələri əhatə edəcək. Azərbaycan Avropa İttifaqı ilə enerji sahəsində tərəfdaşlıq sazişini də artıq imzalayıb. Yeni saziş isə siyasi, iqtisadi və humanitar sahələri də əhatə edəcək.

Azərbaycanla qurum arasında əməkdaşlığın əsas istiqamətlərindən biri enerji sahəsində dialoqun təşkilidir. 7 noyabr 2006-cı il tarixində Azərbaycan Prezidentinin Brüsselə səfəri zamanı imzalanmış “Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandumu” tərəflər arasında enerji dialoqunun genişləndirilməsi istiqamətində yeni imkanlar yaradıb.

Ardı 2-ci səh.

## Tərtər rayonunda xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Tərtər rayonunda xalça istehsalı emalatxanasının tikintisi, avadanlıq və dəzgahlarla təchizatı və infrastrukturunun yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.49.5-ci yarımbəndində göstərilmiş məbləğin 2,0 (iki) milyon manatı “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyul 2018-ci il*

## Maldiv Respublikasının Prezidenti zati-aliləri cənab Abdulla Yamin Abdul Qəyyuma

Hörmətli cənab Prezident!

Maldiv Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Maldiv xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2018-ci il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Bu il aprelin 11-də keçirilmiş seçkilərdə inamlı qələbə qazanaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə Surinam Respublikasının hökuməti və xalqı adından, şəxsən öz adımdan səmimi təbriklərimi çatdırmaqdan məmnunluq və şərəf duyuram.

Ölkənizin inkişafı, sabitliyi, Azərbaycan xalqının firavanlığı naminə ali dövləti fəaliyyətinizdə Sizə tükənməz enerji və uğurlar diləyirəm.

Əminəm ki, Sizin prezidentliyinizin yeni dönəmində Surinam Respublikası ilə Azərbaycan Respublikası arasında ikitərəfli əlaqələr xalqlarımızın qarşılıqlı mənafeyi naminə daha da güclənəcək.

Zati-aliləri, Sizə, Azərbaycan Respublikasının hökumətinə və xalqına ən xoş arzularımı çatdırıram.

Cənab Prezident, Sizə ən dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Desire Delano BOUTERSE,***
***Surinam Respublikasının Prezidenti***

## Azərbaycan sülh elçisi, Ermənistan “kamikadze” rolunda

Son günlər Qafqazda baş verən prosesləri müşahidə edərkən Azərbaycanla Ermənistanın fərqli imkanları və iqtisadi gedişləri bu ölkələrin dünya düzənində tutduğu mövqelərə müəyyən mənada aydınlıq gətirir və kimin kim olduğunu üzə çıxarmağa imkan verir. Zahirən Qərb Ermənistanı və orada xaricdən körükləndirilən “məxməri inqilabı” eninə-uzununa dəstəkləsə də, artıq bir sıra dövlətlər belə qənaətə gəliblər ki, bu ölkənin dünyanın siyasi müstəvisində atdığı addımlar reallıqlar və zərurətdən daha çox müəyyən “beyin mərkəzləri”nin hazırladıqları ssenarilərin təsiri altında baş verir.

Müəmmalısı da odur ki, “məxməri inqilabçılar” bir addımı atırlar, ikinci addımlarının hara düşəcəyini bilmirlər, gözlərini bağlayıb bir-birlərini uçurumlara sarı sürükləyirlər. Ona görə də Ermənistanın hansı ardıcıllıqlarla niyyətlərini icra edəcəklərini təyin etmək mümkün deyil. Hər şey Paşinyana göndərilən təlimatlardan asılıdır. O isə öz növbəsində, dərin təfəkkürə və demokratik dünyagörüşünə malik olmadığından “yuxarıdan” gələn bütün tapşırıqları siyasi mütilikl icra edir.

Paşinyan Brüsseldə ilk dəfə beynəlxalq siyasi səhnəyə çıxdı və uğurdan başı gicəllənən küçə teatrının gəzəyən aktyoru kimi bütün liderlərlə qucaqlaşıb şəkil çəkdirməyə başladı. Ermənistan KİV-i də onun dayaz sevincinə mədhiyyələr qoşub göylərə qaldırdı. Paşinyanın ABŞ Prezidenti Trampdan tutmuş NATO-nun Baş katibi Stoltenberqə kimi bütün görüşlərini İrəvan mətbuatı əfsanəyə çevirdi. Amma bir sıra dünya KİV-i də bu mövzudan yan keçmədi, görüşlərin erməni diasporu tərəfindən necə gəldi təşkil edildiyini və məzhəkəni xatırlatdığını yazdı.

Ardı 5-ci səh.

## Kənd turizminin inkişafına diqqət artır





Ölkəmizdə qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı dövlət başçısının tapşırığına əsasən, turizm sənayesinə də diqqət və qayğı artırılmaqdadır. İqtisadi baxımdan gəlirli sahə olduğundan son illər turizm sahəsində əməli işlər görülür. Bununla bağlı bir sıra dövlət proqramları qəbul edilir və hüquqi sənədlər imzalanır.

Turizmin inkişafı istiqamətində ölkəmizdə aparılan dövlət siyasəti Qax rayonuna da təsirsiz ötüşməyir. Hər il rayonda yeni turizm məkanlarının istifadəyə verilməsini və turistlərə göstərilən xidmətin keyfiyyətinin yüksəldilməsini qeyd etmək olar.

Hazırda Qax rayonunda turistlərə 12 turizm və onlarca ictimai-iaşə obyektləri xidmət göstərir. Bunların arasında mehmanxana, “Şəfa” istirahət və müalicə pansionatı, İlisu pansionatı, “Yaşıl park”, “Ulu”, “İmproteks”, “Ulu dağ” , “Səngər qala”, “Bergs”, “Kürmük” turizm-istirahət mərkəzləri və “Eden” park hotel, “El Resort” beş ulduzlu hoteli məxsusi yer tutur. Həmin müəssisələrdə birdəfəlik yerlərin sayı isə təxminən mindən çoxdur. Turizm mərkəzlərində olan qiymətlərə gəldikdə isə göstərilən xidmətin keyfiyyəti və məkandan asılı olaraq 27-30-55 və 100 manat aralarında dəyişir.

Rayonu ziyarət edən turistlərin sayında da dinamik artım müşahidə edilməkdədir. 2015-ci ildə rayona 24 min 100 nəfər turist gəlmişdisə, 2016-cı ildə onların sayı 29 min 509 nəfərə çatıb. 2017-ci ilin göstəriciləri isə daha cəlbedicidir. Ümumi say əvvəlki illərlə müqayisədə xeyli artımla 43 min 383 nəfər təşkil edib ki, onlardan da 3259 nəfəri xarici turistlərdir.

Qax ölkəmizin hərtərəfli təbii gözəlliklərə malik bölgələrindəndir. Zəngin fauna və florası ilə seçilən, yeraltı, yerüstü sərvətlərinə, mineral xammal ehtiyatlarına malik Qax rayonu mülayim və saf dağ havası, şəfalı bulaqları, şəlalələri, düzənlik və dağlıq meşələri, bir sözlə, bənzərsiz təbiət mənzərələri ilə diqqəti cəlb edir. Qədim tarixə və mədəniyyətə malik bu məkanın hər guşəsi turistlər üçün əsl istitahət məkanıdır. Rayonun müalicəvi suları, təbii dərman bitkiləri min bir dərdin dərmanıdır. Bura üz tutan əksər xəstələr üçün şəfa mənbəyidir.

Qaxın ərazisində 8 iri çay axır. Gürcüstan Respublikasından gələn tranzit axınlı Qanıx çayı mənbəyini Türkiyədən götürür və rayon ərazisindən 61 kilometr məsafədən keçməklə Mingəçevir su anbarına tökülür. Qalan çayların mənbəyi Böyük Qafqaz sıra dağlarındadır. Bunlar Kürmük, Ləkit, Qapı, Zərnə və Əyri çaylarından ibarətdir.

Rayonun ən uca zirvələri isə Mirana, Partizan, Qəbirliqaş, Yarpızbasan və Qıcalı hesab olunur.

İlisu kəndindəki “Ramrama” şəlaləsinin hündürlüyü 25 metrdir. Ləkit kəndində öz unikallığı ilə seçilən “Damcılı” şəlalə 2006-cı ildən Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təbiət abidəsi kimi qeydə alınıb və mühafizə olunur.

Qax kurort resursları cəhətdən zəngin rayonlardan olmasına baxmayaraq, mövcud potensialdan çox cüzi istifadə olunur. Bol mineral su ehtiyatlarının varlığı rayonda iqlim-balneoloji kurort zonalarının salınmasını zəruri edir. İlisu və Sarıbaş kənd ərazilərində olan termal bulaqlardan ta qədimdən xalq təbabətində yel xəstəliyinə qarşı istifadə olunub. Hamam çayı sahilində “Oğlan bulaq, Qız bulaq” və və digər mineral su mənbələri Qaxa qonaq gələn yüzlərlə insana şəfa bəxş edib. Lakin sonradan baxımsızlıq ucbatından həmin bulaqların suyu boş yerə axırdı. Sevindirici haldır ki, bu bulaqların suyu 2010-cu ildə borularla “Ulu dağ” istirahət mərkəzinə gətirilib. Artıq müalicə məqsədilə sudan istifadə üçün uzun yolu getmək lazım gəlmir.

Ardı 4-cü səh.

# Nazirlər Kabinetində Azərbaycan ilə Afrika İttifaqı arasında əməkdaşlıq məsələləri müzakirə olunub

Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov iyulun 25-də Afrika İttifaqı Komissiyasının enerji və infrastruktur məsələləri üzrə komissarı xanım Amani Abu-Zeyd ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Respublikası ilə Afrika İttifaqı arasında yüksək səviyyəli dialoqun və səfərlər mübadiləsinin həyata keçirilməsinin, hüquqmüqavilə bazasının yaradılmasının vacibliyi vurğulanıb.



Baş nazir Novruz Məmmədov qeyd edib ki, Azərbaycan Afrika ölkələri ilə iqtisadi əməkdaşlığı genişləndirməkdədir. Bu əlaqələrin inkişaf etdirilməsi üçün son illər mühüm addımlar atılıb. Eyni zamanda, Azərbaycanın bir sıra Afrika ölkələrinə humanitar yardımlar göstərdiyini xatırladan Baş nazir qeyd edib ki, iqtisadiyyatın müxtəlif istiqamətlərində, xüsusən energetika sahəsində Azərbaycan ilə Afrika İttifaqı arasında əməkdaşlıq üçün böyük potensial mövcuddur. Azərbaycanın neft-qaz hasilatı və ixracı sahəsində zəngin təcrübəsinin olduğunu bildirən Baş nazir deyib ki, ölkəmiz bu təcrübəsini Afrika İttifaqı ölkələri ilə bölüşməyə hazırdır.

Azərbaycanın 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrlik edəcəyini diqqətə çatdıran Baş nazir Novruz Məmmədov bunun təşkilatda təmsil olunan Afrika ölkələri ilə Azərbaycan arasında əlaqələrin daha da genişlənməsinə imkan yaradacağını qeyd edib.

Ölkəmizin elektron idarəçilik sisteminin yaradılması sahəsində əldə etdiyi nailiyyətlərdən danışan Novruz Məmmədov artıq dünyada Azərbaycan brendi kimi tanınan "ASAN xidmət" modeli və onun şəffaflıq, vətəndaş məmnunluğu sahəsində oynadığı əhəmiyyətli rol haqqında ətraflı məlumat verib.

Baş nazir son illər ölkəmizdə yüksək səviyyəli beynəlxalq tədbirlərin keçirildiyini, bunun üçün mükəmməl infrastrukturun yaradıldığını bildirərək Bakı şəhərinin "Expo 2025" Ümumdünya Sərgisinə evsahibliyi üçün namizədliyinin irəli sürüldüyünü diqqətə çatdırıb və bu məsələdə Afrika İttifaqı ölkələrinin Azərbaycana dəstək verəcəyinə ümidvar olduğunu vurğulayıb.

Azərbaycan ilə Afrika İttifaqı ölkələri arasında təhsil sahəsindəki əlaqələrə toxunan Baş nazir Novruz Məmmədov hələ 1960-1980-ci illərdə beş mindən çox afrikalı tələbənin ölkəmizdə təhsil aldığını xatırladaraq qeyd edib ki, hazırda da bu sahədə əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə afrikalı tələbələrə Azərbaycanda müxtəlif təhsil proqramlarında iştirak üçün şərait yaradılır.

Afrika İttifaqı Komissiyasının enerji və infrastruktur məsələləri üzrə komissarı xanım Amani Abu-Zeyd Azərbaycana səfərindən, keçirdiyi səmərəli görüşlərdən məmnun qaldığını bildirib. Qonaq Azərbaycanın turizm, təhsil, informasiya və kommunikasiya texnologiyaları və digər sahələrdəki təcrübəsindən yararlanmağın faydalı olacağını vurğulayıb.

Söhbət zamanı, həmçinin aviasiya, neft-kimya, innovasiyaların ixracı, humanitar və digər sahələrdə əlaqələrin inkişafına dair fikir mübadiləsi aparılıb.

# Müstəqil siyasətin qətiyyətli ifadəsi

Əvvəli 1-ci səh.

Azərbaycan bir çox Avropa ölkələrini neftlə təchiz edir və 2020-ci ildən isə "Cənub qaz dəhlizi" vasitəsi ilə həmin ölkələri təbii qazla təchiz edəcək.

Bununla yanaşı Azərbaycan Avropa üçün əhəmiyyətli nəqliyyat dəhlizi rolunu oynayır. Asiyanı Avropa ilə birləşdirən yeni marşrutun, Şərqlə Qərb arasında körpü rolunu oynayacaq nəqliyyat dəhlizinin istifadəyə verilməsi Avropadan Asiyaya və geriyə malların daşınması vaxtını iki dəfə qısaldacaq. Bakı-Tbilisi-Qarsın istifadəyə verilməsi də Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin inkişafına müsbət təsir göstərib. Bu layihə bilavasitə Avropa İttifaqının da maraqlarına uyğundur.

Ümumiyyətlə, ölkə iqtisadiyyatının şaxələndirilməsi üçün də Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin inkişafı önəmlidir. Bu əlaqələr qarşılıqlı maraqlara söykənir. Avropa İttifaqı Azərbaycanı bir tərəfdaş kimi qəbul etməklə, eyni zamanda ölkəmizin dəyərlərinə böyük qiymət verir.

## Uğurlu xarici diplomatiyanın real mənzərəsi

Xatırladaq ki, iyulun 8-də Prezident İlham Əliyev Nazirlər Kabinetinin ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında da bu məsələyə toxunmuşdu. Dövlət başçısı bildirmişdi ki, Avropa İttifaqı ilə Azərbaycan yeni saziş üzərində işləyir. Avropa İttifaqına üzv ölkələrin üçdə bir hissəsi ilə Azərbaycanın strateji tərəfdaşlığı haqqında sənədlərin mövcudluğu onu göstərir ki, Azərbaycan Avropa üçün strateji əhəmiyyət daşıyan ölkədir.

Beləliklə, Prezident İlham Əliyevin Brüsseldə Donald Tuskla görüşü, "Tərəfdaşlıq prioritetləri" sənədinin paraflanması, İtaliya və Fransa prezidentləri ilə keçirilən mühüm görüşlər ən başlıcası Azərbaycanın uğurlu xarici diplomatiyasına böyük töhfə vermiş oldu.

Həm İtaliya, həm də Fransa Avropa İttifaqının aparıcı ölkələridirlər. Azərbaycan dövlətinin xarici siyasətində milli maraqlar və beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı əməkdaşlıq kimi məyarlar öndə dayanır. Bu amillər isə regional və qlobal inkişafa, sabitliyə, təhlükəsizliyə böyük töhfədir.

Bu bir həqiqətdir ki, son 15 ildə Prezident İlham Əliyev düşünülmüş, dinamik xarici siyasət həyata keçirir və Azərbaycan qarşılıqlı faydalı əməkdaşlığa söykənən, bir-birinin daxili işlərinə qarışmama prinsipinə əsaslanan siyasətin tərəfdarıdır.

Son iki həftə ərzində beynəlxalq münasibətlərdə və xarici siyasətimizdə əldə edilən uğurlu nəticələri detalları ilə bir yerə toplayaraq bütövlükdə vahid geostrateji tablonu yaratmağa çalışsaq, aydın şəkildə görərik ki, bütün danışıqlar Azərbaycan-Avropa İttifaqı arasında münasibətlərin daha da şaxələnməsinə müsbət təsirini göstərəcək.

***R.BAXŞƏLİYEV, "Azərbaycan"***

# Rusiya Azərbaycan iqtisadiyyatına 4 milyard dollara yaxın investisiya yatırıb

"Azərbaycan tərəfindən Rusiya iqtisadiyyatına 1 milyard dollardan çox, Rusiya isə Azərbaycan iqtisadiyyatına 4 milyard dollara yaxın investisiya yatırıb".



Bu fikirlər Moskvada səfərdə olan iqtisadiyyat naziri, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə hökumətlərarası Dövlət Komissiyasının həmsədri Şahin Mustafayevlə Rusiya Federasiyasının iqtisadi inkişaf naziri, komissiyanın həmsədri Maksim Oreşkin arasında keçirilən görüşdə səslənib.

Aidiyyəti dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə keçirilən görüşdə Şahin Mustafayev dövlət başçılarının ikitərəfli əlaqələrin inkişafına xüsusi önəm verdiklərini, iki ölkə arasında münasibətlərin strateji səviyyədə olduğunu və iqtisadi-ticarət sahəsi də daxil olmaqla bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayıb. Qeyd edilib ki, Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır və 2017-ci ildə ölkələrimiz arasında ticarət dövriyyəsi 22 faiz artıb.

Ticarət əlaqələrinin artım dinamikası bu ilin 6 ayında da davam edib və bu dövrdə ticarət dövriyyəsi 20 faizədək artıb. Azərbaycandan qeyri-neft məhsullarının ixracı üzrə Rusiya birinci yerdədir. Təsadüfi deyildir ki, Azərbaycanın ilk ticarət nümayəndəliyi məhz Rusiya Federasiyasında yaradılıb. "Made in Azerbaijan" brendinin təşviqi, ixracın genişləndirilməsi məqsədilə Rusiyaya ixrac missiyaları təşkil edilib, Azərbaycan şirkətləri bu ölkədə keçirilmiş sərgilərdə vahid ölkə stendi ilə təmsil olunub. Azərbaycan tərəfindən Rusiya iqtisadiyyatına 1 milyard dollardan çox, Rusiya isə Azərbaycan iqtisadiyyatına 4 milyard dollara yaxın investisiya yatırıb. 2017-ci ildə Bakıda Rusiya İxrac Mərkəzinin nümayəndəliyinin açılması Rusiya ilə Azərbaycan arasında ticarət əlaqələrinin genişlənməsində əhəmiyyətli addımdır.

Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Oreşkin iki ölkə arasında iqtisadi-ticarət əlaqələrinin inkişafı üçün yüksək potensialın olduğunu vurğulayaraq iqtisadi əməkdaşlığın gələcək inkişaf istiqamətləri barədə fikirlərini bildirib.

İkitərəfli görüşdə, həmçinin müqavilə-hüquq bazasına, bu ilin sentyabrında keçirilməsi nəzərdə tutulan Azərbaycan-Rusiya Regionlararası Forumuna və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

Görüşdə kənd təsərrüfatı, maliyyə, vergi, gömrük, turizm, humanitar, o cümlədən təhsil, idman və s. sahələrdə əlaqələrin inkişafı, biznes əməkdaşlığının genişləndirilməsi, müxtəlif sahələrdə birgə müəssisələrin təşkili, Rusiyada Azərbaycan ticarət evlərinin və logistik mərkəzlərin yaradılması, şərabçılıq məhsullarının ixracının artırılması, nəqliyyat sahəsində əməkdaşlığın gücləndirilməsi, "Şimal-Cənub nəqliyyat dəhlizi"nin inkişaf etdirilməsi məsələləri müzakirə edilib.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# "Şıxlı" dövlət sərhədinin buraxılış məntəqəsinə baxış keçirilib

2018-ci ilin 24 iyul tarixində Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev, Dövlət Gömrük Komitəsinin sədri gömrük xidməti general-leytenantı Səfər Mehdiyev, Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev "Şıxlı" dövlət sərhədinin buraxılış məntəqəsində mövcud vəziyyət və xidməti fəaliyyətin təşkili ilə tanış olmuşlar.

Səfər çərçivəsində Azərbaycan Respublikası Prezidentinin tapşırıqlarına uyğun olaraq dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd keçmə prosedurlarının sadələşdirilməsi, ölkəyə gələn və ölkədən gedən şəxslər və nəqliyyat vasitələri üzərində sərhəd və gömrük nəzarətinin effektivliyinin daha da artırılması və yoxlama müddətlərinin maksimal azaldılması məsələləri nəzərdən keçirilmiş, buraxılış məntəqəsinin infrastrukturunun təkmilləşdirilməsi istiqamətində müzakirələr aparılmışdır.

Dövlət orqanlarının rəhbərləri tərəfindən dövlət sərhədindən buraxılış məntəqəsində olan vətəndaşlarla görüş keçirilmiş, onların müraciət və təklifləri dinlənilmişdir.

***"Azərbaycan"***

# Tərəfdaşlıq prioritetləri və ərazi bütövlüyü: Aİ ilə NATO-nun əhəmiyyətli mesajları

*Siyasətdə konkret nəticələr əsas götürülür. Vədlər verilə bilər, ancaq vətəndaşlar onların yerinə yetirilmədiyini gördükdə, liderdən üz döndərə bilirlər. Nikol Paşinyan hazırda bu vəziyyətdədir. Azərbaycanın dövlət başçısı İlham Əliyev isə əksinə, bütün dünyada verdiyi vədləri yerinə yetirən və etibarlı tərəfdaş kimi fəaliyyət göstərən lider olaraq qəbul edilir. Prezidentin Brüsselə iyul ayının 10-12-si arası etdiyi səfərin nəticələri bunu bir daha təsdiq edir. İlham Əliyev Avropa İttifaqı üçün çox mühüm bir sənədin paraflanmasına nail olub. "Tərəfdaşlıq prioritetləri" adlanan həmin sənəddə Aİ ilə Azərbaycan arasında qarşılıqlı faydalı əməkdaşlığın başlıca prinsipləri öz əksini tapıb. Bu sənədin strateji əhəmiyyəti hələ çox təhlil edilməlidir. Eyni zamanda, Brüsseldə NATO-nun növbəti sammitində qəbul edilən bəyannamədə Azərbaycanın siyasi sərhədlərinin toxunulmazlığı vurğulanıb. Bu da ciddi əhəmiyyəti olan hadisədir. Bu kimi məqamların işığında Prezident İlham Əliyevin Brüssel səfərinin bir sıra məqamları üzərində geniş dayanmağa böyük ehtiyac görürük.*

## İki vacib aspekt: Brüssel sənədləri

Azərbaycan Prezidenti İlham Əliyevin xarici səfərləri həmişə müsbət nəticələrlə yadda qalır. İyul ayında dövlət başçısının Brüssel səfəri isə iki aspektdən daha çox önəm kəsb edirdi. Onun birinci aspekti Avropa İttifaqı ilə qarşılıqlı əlaqələrin yeni müstəvidə necə davam etdiyinin müəyyənləşdirilməsi ilə bağlıdır ki, bu da iki cəhətdən aktual idi. Hər şeydən öncə, Azərbaycan-Aİ münasibətlərinə digər böyük geosiyasi güc mərkəzlərinin verəcəyi reaksiya maraq doğururdu. Çünki məlumdur ki, Rusiya Gürcüstan və Ermənistana onların Avropa ilə əməkdaşlığının məzmunu ilə bağlı xəbərdarlıq edib. İkinci cəhət isə Azərbaycanla Avropa İttifaqı əməkdaşlığının yeni məzmununun özəllikləri ilə əlaqəli idi.

Birinci aspektin hər iki cəhətinin digər geosiyasi güc mərkəzləri tərəfindən normal qarşılandığı artıq məlumdur. Belə ki, Moskva Bakının bu istiqamətdə atdığı addımlara qətiyyən etiraz etmir, əksinə, onları qəbul edir. Çünki bu əməkdaşlığın strategiyası heç kəsin maraqlarına qarşı yönəlməyib. Brüsseldə paraflanan "Tərəfdaşlıq prioritetləri" adlı sənədin birinci bəndindən bu, aydın görünür.

Sənəddə yazılıb ki, birgə tərəfdaşlıq prioritetləri əməkdaşlığın daha da gücləndirilməsi məqsədilə Azərbaycan və Avropa İttifaqı tərəfindən qarşılıqlı maraq və birgə dəyərlərə əsaslanaraq razılaşdırılıb. Yəni burada ortaq dəyərləri gözləmək şərti ilə hər iki tərəf üçün qarşılıqlı faydalı tərəfdaşlıqda hansı istiqamətlərin prioritet kimi qəbul edildiyi vurğulanıb. Bunda da əsas məqsəd hansısa inteqrasiyaya nail olmaqdan ibarət deyil - başlıcası əməkdaşlığı gücləndirməkdir. Eyni məqsəd Rusiya-Aİ münasibətlərində də qarşıya qoyula bilər. Və burada kimlərəsə qarşı nəyinsə ola bilməsi mümkün deyildir.

Birgə dəyərlərin ayrıca vurğulanması da təsadüfi deyil. Bu o deməkdir ki, tərəflərdən hər hansı biri digərinə iradəsini qəbul etdirə bilməz. Söhbət yalnız qarşılıqlı surətdə qəbul edilən addımlardan gedə bilər. Deməli, bu vəziyyətdə tərəflərin müstəqil siyasət kursuna sadiq qalmaları bəri başdan razılaşdırılır. Təcrübə göstərir ki, Azərbaycan bütün tərəfdaşları ilə beynəlxalq hüquq çərçivəsində, balanslaşdırılmış məzmunda əlaqələr qurur.

Bunlar onu deməyə əsas verir ki, Azərbaycanın Avropa ilə əməkdaşlığını gücləndirmək niyyəti safdır, sülhə, barışa və tərəflərin maraqlarının eyni dərəcədə təmin edilməsinə dayanır və başqasına qarşı yönələ bilməz. Vurğulanan məqam birinci bənddə yer almış digər bir müddəanın da çox aktual olduğunu təsdiqləməkdədir. Biz, birinci bənddə hər iki tərəfin ölkələrin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi ilə yanaşı, dövlətlərin beynəlxalq sərhədlərinin toxunulmazlığının da dəstəklənməsinə sadiqliyinin ifadə olunduğunu nəzərdə tuturuq.

İndiyə qədər Avropa İttifaqı "dövlətlərin beynəlxalq miqyasda tanınmış sərhədlərinin toxunulmazlığının dəstəklənməsinə sadiqliyi" ifadəsini Azərbaycanla imzaladığı sənədlərə salmırdı. Bu, siyasi baxımdan bir çatışmazlıq idi. Çünki, ümumiyyətlə, Aİ ölkələrin ərazi bütövlüyünü dəstəklədiyini daim vurğulayırdı və Azərbaycanla bağlı bundan o tərəfə konkretlik etmirdi. İndi isə birmənalı vurğulanır ki, Azərbaycanın beynəlxalq ictimaiyyət tərəfindən tanınmış siyasi sərhədləri toxunulmazdır. Deməli, bu prinsipin pozulması həm də Aİ üçün siyasi problemdir. Və Brüssel onun düzəldilməsinə çalışmalıdır.

Onu vurğulayaq ki, Ermənistan siyasi dairələri bu məqamdan bərk narahat olublar. Nikol Paşinyan Brüsseldə pul dilənəndə, Azərbaycan rəhbəri yuxarıda vurğulanan mühüm sənədin paraflanması mərasimində iştirak edirdi. İlham Əliyev konkret siyasi uğura imza atırdısa, N.Paşinyan "yardım edin" deyə, hay-küy salmaqla məşğul idi. O, Brüssel hava limanında da şikayət etdi ki, Avropa "erməni inqilabı"na lazımi qiymət vermir.

Əslində, Brüssel çox gözəl bilir ki, Ermənistanda inqilab deyilən proses nə demokratiya, nə də sivil inkişaf naminə edilib - məsələ ölkədəki klanlararası savaşın yeni mərhələsi ilə bağlıdır. Digər tərəfdən, kənardan böyük geosiyasi güclərdən biri öz təsirini göstərmişdi. Bu bağlılıqda hamı bilir ki, Ermənistan nə qədər atılıb-düşsə də, Rusiyanın hərbi və iqtisadi çətirinin altından çıxa bilməz.

Bunlardan sənəddə vurğulanan məqamların birinci aspekti çərçivəsindəki ikinci cəhəti də olduqca əhəmiyyətlidir. Burada Azərbaycanın öz iqtisadiyyatının şaxələndirilməsinə yönəlmiş siyasətinə dəstək ifadə olunub və eyni zamanda, ölkəmizdə iqtisadi islahatlar prosesinə yardım edilməsi istiqamətində Avropa İttifaqının mümkün töhfəsi vurğulanıb. Aydındır ki, bu məqam da Brüsselin prinsipial mövqeyini əks etdirir. Belə ki, Azərbaycana dost olmayan dairələr ölkədə həyata keçirilən islahatların real məzmununa kölgə salmağa və onu antisivil məzmunda təqdim etməyə çalışırlar. Brüssel isə bu sənədlə bəyan edir ki, o, nəinki Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi proqramlarını müsbət qiymətləndirir, hətta bununla bağlı öz töhfəsini verməyə də hazırdır.

Ermənistanla münasibətlərdə bu kontekstdə hansısa konkret sənəd varmı? Brüssel daim Ermənistanın normal bir proqram təklif etməsini istəyir. Əvəzində isə maliyyə yardımının vacibliyindən başqa bir fikir eşitmir. Çünki Ermənistan müstəqil deyil, o, Kremlin icazəsi olmadan hansısa proqram tərtib edib, Avropaya təqdim edə bilməz.

## Geosiyasi aspekt: Azərbaycanın real statusu

"Tərəfdaşlıq prioritetləri" sənədində tərəflər arasındakı əməkdaşlığın geosiyasi aspekti də prioritetlərdən biri kimi vurğulanıb. Orada qeyd edilib ki, Azərbaycan əlverişli geosiyasi mövqeyə malikdir. Bu, faktiki olaraq Azərbaycanı Cənubi Qafqazın geosiyasi qovşağı statusunda qəbul etmək deməkdir. Təbii ki, hazırkı mərhələdə məsələnin bu tərəfi çox önəmlidir və birbaşa strateji maraqlara aiddir.

Çünki Cənubi Qafqazda böyük dövlətlərin geosiyasi maraqları daha kəskin şəkildə toqquşmağa başlayıb. ABŞ, Avropa İttifaqı, Rusiya, İran, Türkiyə və Çin regionla bağlı aktiv fəaliyyət göstərirlər. Bu məqam özü ilə konkret ziddiyyətləri də regiona gətirir və onun hər bir yerli dövlətə təsiri qaçılmazdır. Məsələn, Ermənistan bu mübarizənin altında faktiki olaraq əzilir. O, geosiyasi güc mərkəzləri arasında dəqiq mövqe seçə bilmir. Ermənistanın Rusiyaya bağlı olması onu real manevr imkanlarından məhrum edir. Bu səbəbdən hələ də Ermənistanın geosiyasi statusu qeyri-müəyyən olaraq qalır. Qərb ondan mövqeyini dəqiqləşdirməyi tələb edir, Rusiya isə "getsən, cəzalandırılacaqsan" deyir.

Bunun konkret təsdiqi Aİ-nin Ermənistandakı təmsilçisinin İrəvana faktiki olaraq bu cür irad tutmasıdır: "Sizin Aİ siyasətiniz dəyişmir, ancaq bizdən Ermənistan siyasətinin dəyişməsini istəyirsiniz". Bu o deməkdir ki, Brüssel ümumi halda İrəvanla əlaqələrin inkişafına meyilli olduğunu ifadə etməsinə baxmayaraq, hələlik konkret mövqenin olmadığını da qeyd edir. Ermənistanın yeni baş naziri də Avropanın mövqeyindən narazıdır. O, Brüsseldən qayıdarkən sözdə deyil, əməldə Avropadan dəstək gözlədiyini açıq deyib. Deməli, hər iki tərəf üçün geosiyasi aspektdə qeyri-müəyyən məqamlar mövcuddur.

Gürcüstanla bağlı situasiya bir qədər fərqlidir. Tbilisi açıq surətdə qərbyönlü siyasət yeridir. Ancaq bu, Rusiya tərəfindən normal qarşılanmır və həmişə dolaşıqlıq yaranır. Son olaraq Vladimir Putin Gürcüstanın NATO-ya qəbul edilməsi imkanı ilə bağlı verilən vədlərə münasibətini sərt ifadə edib. O deyib ki, Kreml buna qarşı nə lazımdırsa, edəcək. Yəni faktiki olaraq Aİ-nin Gürcüstan istiqamətində də bir geosiyasi qeyri-müəyyənlik mövcuddur. Rusiya Avropanın Gürcüstanda islahat proqramlarını reallaşdırmasına imkan vermir. Onu da deyək ki, Tbilisi Aİ ilə assosiativ üzvlüklə bağlı saziş imzalayıb.

Belə görünür ki, həm assosiativ üzvlük sazişinin mövcudluğu, həm də NATO-nun aktiv dəstəyinə baxmayaraq, Gürcüstanın qlobal geosiyasi proseslərdə statusu məsələsi açıq olaraq qalır. Bu məqam ABŞ Prezidenti D.Trampın V.Putinlə görüşməkdə maraqlı olması fonunda daha düşündürücü görünür. Ekspertlərin fikrinə görə, Amerika Rusiya ilə əlaqələrini öz maraqlarını nəzərə almaqla inkişaf etdirməyə çalışacaq. Bu halda Ermənistan və Gürcüstan kimi dövlətlərin geosiyasi maraqları arxa plana keçir və onlarla bağlı güzəştlər ola bilər.

Məhz bunların fonunda Aİ-nin "Tərəfdaşlıq prioritetləri" sənədində Azərbaycanı regionun ciddi geosiyasi gücü hesab etməsi çox əhəmiyyətlidir. Brüssel sənəddə bu mövqeyinin konkret detallarını da ifadə edib. Belə ki, orada göstərilib ki, ölkəmiz Şərq-Qərb və Şimal-Cənub nəqliyyat və enerji layihələrinin həyata keçirilməsinə ciddi töhfə verir. Bu kontekstdə ayrıca göstərilir ki, "Cənub qaz dəhlizi" layihəsinin tezliklə tam yekunlaşması prioritetlərdən biridir. Və bununla yanaşı, layihənin işləməsi, yəni Avropa bazarlarına təbii qazın çatdırılması Brüssel üçün əsas prioritetlər sırasındadır.

Demək mümkündür ki, məhz yuxarıda vurğulanan konkret layihələrə görə, Avropa İttifaqı Azərbaycanı Cənubi Qafqazın nəqliyyat və geosiyasi qovşağı kimi qəbul edir və onun qlobal dünya siyasətindəki roluna bu bağlılıqda qiymət verir. Çox əhəmiyyətlidir ki, artıq Qərb dövlətləri də Azərbaycanın regionda aparıcı rolunu əməldə etiraf edirlər və münasibətlərini bu reallığı nəzərə alaraq qurmağa çalışırlar. Bu şərtlər daxilində Aİ-nin hansısa xüsusi maraqlara görə etibarlı tərəfdaşı ilə ziddiyyətə girməsi ehtimalı çox aşağıdır. Erməni siyasilərinin bəslədikləri ümidlərin puç olmaqda olduğu şübhəsizdir. Buradan başqa bir maraqlı nəticə də alınır.

Yuxarıda vurğulanan məqamlar təsdiq edir ki, sənəddə Azərbaycan və Avropa İttifaqının birbaşa enerji və nəqliyyat uzlaşmaları yaratmaq kimi birgə strateji məqsədləri mövcuddur və bu, nəzərə alınır. Bu kontekstdə tərəfdaşlıq prioritetləri sənədində Azərbaycanın strateji enerji tərəfdaşı kimi rolu qəbul edilir.

Ölkəmizin coğrafi mövqeyinə görə təbii nəqliyyat qovşağı olaraq bağlantıları, ticarət və logistikanı inkişaf etdirmək imkanları tanınır. Etiraf edək ki, geosiyasi baxımdan kifayət qədər ciddi bəndlərdir. Bu, Bakının enerji təhlükəsizliyi və nəqliyyat dəhlizlərinin işləməsi aspektlərində Avropa üçün əhəmiyyətinin nümayişidir.

Hazırkı mərhələ üçün çox mühüm əhəmiyyət daşıyan başqa bir məqam da sənəddə xüsusi qeyd edilib. Belə ki, Brüssel Avropa İttifaqının həm neft, həm də qeyri-neft sektoru daxil olmaqla ölkəmizə qoyulan birbaşa xarici sərmayələrin yarısına pay sahibi kimi əsas investisiya tərəfdaşı olduğunu ifadə edir. Ümumilikdə bu, Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi siyasəti və geniş iqtisadi islahatlar proqramının qəbul edilməsi deməkdir.

Bir müqayisənin fonunda həmin bəndin strateji əhəmiyyəti daha aydın dərk edilə bilər. Ermənistanın yeni baş naziri Brüsselə səfərində əsas diqqəti ölkəyə sərmayə qoyuluşlarına yönəldəcəyini bəyan etmişdi. Onun görüşlərdə bu məqamı daim qabartmağa çalışdığı haqqında informasiyalar yayılıb. Nəticədə, real olaraq Aİ 10 milyon avro yardım edə biləcəyini bildirdi. Bu rəqəm erməni liderin heç xoşuna gəlməyib. O, tutarlı sərmayə qoyuluşu istəyib. Cavabında isə deyiblər ki, çox danışma, konkret proqramlar təqdim et.

Buradan belə nəticə çıxır ki, Ermənistan indiyə qədər Brüsselə bir dənə də olsun real proqram təqdim etməyib. Niyə? Çünki təqdim edə bilmir və işi daim yardım dilənməkdən ibarət olub. Ermənilərə elə gəlir ki, Qərb də, Rusiya da onları daim yedirtməlidir, əvəzsiz pul verməlidir. Artıq belə hoqqalara uymaq halı nə Qərbdə var, nə də Rusiyada. Ona görə də N.Paşinyan hara gedirsə, əliboş qayıtmalı olur.

Bütün bunların fonunda tərəfdaşlıq prioritetləri sənədində humanitar sferada əməkdaşlıq məsələsinin də yer alması çox önəmlidir. Çünki XXI əsr mədəniyyət, dialoq, qarşılıqlı yardımlaşma və barış əsridir. Sənəddə ayrıca qeyd olunur ki, Azərbaycan mədəniyyətlərarası dialoqun inkişafına ciddi töhfələr verir və bu, razılıqla qarşılanır. Bu sahədə Avropa İttifaqı Azərbaycanla əməkdaşlığa xüsusi maraq göstərir. Həmin kontekstdə paraflanan sənəddə Azərbaycan ilə Avropa İttifaqı arasında vizaların ləğvi sahəsində dialoqun perspektivlərinin yer alması vacib faktor kimi qəbul edilir.

Bunlarla yanaşı, tərəfdaşlıq prioritetləri sırasında yaxşı idarəçilik, mobillik və insanlararası əlaqələr, humanitar, təhsil və qarşılıqlı maraq doğuran digər əsas sahələrdə də əməkdaşlıq yer alıb. Bu sahələr müasir tarixi mərhələdə cəmiyyətlərarası və fərdlərarası münasibətlərdə böyük yer tutur. İnsanların kommunikativ mobilliyi onların hüquqlarının təmin edilməsi və azadlıqları ilə birbaşa əlaqələndirilir.

Nəhayət, sənəddə vurğulanır ki, tərəfdaşlıq prioritetləri 2018-2020-ci illəri əhatə edir və tərəfdaşlıq bərabərhüquqlu, qarşılıqlı xarakter daşıyır. Rəsmi İrəvanın son zamanlar tez-tez ortaya çıxarmağa çalışdığı məqamlar aspektində məsələnin bu tərəfi əhəmiyyətlidir. Belə ki, Ermənistanın yeni rəhbərliyi dünyaya özünü insan haqlarını qoruyan, demokratiyanı müdafiə edən, humanizmin beşiyi kimi təqdim etməyə cəhd göstərir. Bunun fonunda Azərbaycanı antidemokratik, antihumanist, dünya sivilizasiyasını inkişafdan salan və idarəetmədə geridə qalan bir ölkə olaraq xarakterizə etməyə çalışır. Bununla da Dağlıq Qarabağ məsələsini ermənilərin xeyrinə həll etməyin lazım gəldiyini irəli sürür. Yəni Ermənistanı müdafiə etmək, dünya demokratiyasını müdafiə etmək kimi təqdim olunur.

Təbii ki, buna ekspertlər ironiya ilə yanaşırlar. Onlar ermənilərin xarici dəstəklə çox vəhşi üsullarla, günahsız dinc sakinləri qətlə yetirmək, uşaqları, qadınları və qocaları əsir götürməklə Azərbaycan torpaqlarını işğal etdiyini bilirlər. Bu əməllərin sahibləri indi demokratiyadan, insan haqlarından, qadın hüquqlarının qorunmasından necə danışa bilərlər? Onlar bir zamanlar törətdikləri vəhşilikləri qəhrəmanlıq nümunəsi kimi videokadrlarla dünyaya nümayiş etdirirdilər. Serj Sarkisyan dəfələrlə demişdi ki, "ermənilər dünyaya nümayiş etdirdilər ki, dinc sakinləri qətlə yetirə bilərlər". Ölkənin ilk prezidenti Levon Ter-Petrosyan isə Xocalıdakı erməni vəhşiliyi ilə bağlı verilən suala "müharibə müharibədir" deyə cavab vermişdi.

Bunları erməni terrorçu və separatçıları unuda bilərlər, lakin nə azərbaycanlılar, nə də mütərəqqi dünya ictimaiyyəti unutmaz. Erməni siyasətçiləri başda olmaqla bu vəhşilikləri törədənlərin hamısı ədalət məhkəməsi qarşısında cavab verəcəklər. Onda müttəhim erməni terrorçuları öz "demokratikliklərini" müdafiə edərlər.

## Siyasi sərhədlərin toxunulmazlığı: Bakının növbəti uğuru

Avropa İttifaqı ilə imzalanan sənədin yuxarıda vurğulanan məqamları fonunda daha bir sənədin əhəmiyyəti aydın görünür. Bu, Azərbaycan Prezidentinin Brüssel səfərinin ikinci mühüm aspekti ilə bağlıdır. Konkret olaraq Brüsseldə NATO-nun növbəti sammitinin yekun bəyannaməsində qeyd edilib ki, NATO Azərbaycanın ərazi bütövlüyünü Dağlıq Qarabağ münaqişəsinin həlli kontekstində dəstəkləyir. Bu tezis olduqca vacibdir. İlk dəfədir ki, Şimali Atlantika Alyansı məhz Dağlıq Qarabağ münaqişəsinin həlli bağlılığında Azərbaycanın ərazi bütövlüyünə dəstək verdiyini rəsmən bəyan edir. Bu, Aİ ilə imzalanan sənəd işığında olduqca əhəmiyyətli məqam təsiri bağışlayır. Yəni, faktiki olaraq Qərb bütövlükdə Azərbaycanla iqtisadi, siyasi, mədəni, energetik, nəqliyyat sferaları ilə yanaşı, təhlükəsizlik və suverenlik məsələlərində də əməkdaşlığa hazırdır. Əvvəlki mərhələlərdə Azərbaycanın ərazi bütövlüyü Gürcüstan, Moldova və Ukraynanın ərazi bütövlüyü kontekstində ümumi qeyd olunurdu. İndi isə konkret münaqişə ilə bağlı mövqe bildirilir.

Ermənilər NATO-nun bu addımından bərk narahat olublar. Onların ekspertləri bunu təhlükəli gedişat kimi xarakterizə edirlər. Yazırlar ki, erməni diplomatiyası bu məsələdə xeyli uduzub və səbəbi bilinmir. Azərbaycan NATO-dan ciddi dəstək almaqdadır, lakin Ermənistan konkret heç bir şey edə bilmir. Ermənilər üçün ən narahatedici məqam isə ondan ibarətdir ki, nə Qərb, nə də Rusiya rəsmi Bakının bu addımlarının qarşısını almır. Əksinə, onlar əməkdaşlığı dərinləşdirməkdə maraqlı olduqlarını deyirlər.

Beləliklə, Azərbaycan Prezidenti İlham Əliyevin Brüsselə səfəri bütün mənalarda çox uğurlu olub. Azərbaycan Avropa İttifaqı və NATO ilə mühüm sənədlər imzalayıb. Bu proses onu göstərir ki, rəsmi Bakının xarici siyasət kursunu Qərb tam qəbul edir. Eyni dərəcədə Avropa Azərbaycan rəhbərliyinin apardığı islahatları, daxili siyasətin bütün aspektlərini də dəstəkləyir.

***Newtimes.az***

# Tarixin və bu günün işığında Nadir şah

## İngilis şərqşünasının kitabı üzərində bəzi düşüncələr

**Nadirin yenilikçi ruhunu əzən, onun qol-qanadını sındıran son və başlıca amil isə onun öz ailəsinin içində anlayış görməməsi, öz sevimli oğlu və varisi Rzaqulu tərəfindən müqavimətlə üzləşməsi olmuşdur. Kiçik ehtiraslarla yaşayan, şöhrətpərəstlik və dəbdəbə düşkünü Rzaqulu Nadir şahın şəxsiyyətinin dar və mühafizəkar İran mühitinə sığmayan masştabını, onun yüksək amalını dərk etməkdə aciz idi. Akademik Ramiz Mehdiyevin qeyd etdiyi kimi, oğlunun saray həyatının cah-cəlallı, qayğısız, məsuliyyətsiz, yaramaz tərəfini seçməsi Nadiri daxilən incidirdi. Çünki o, özü belə həyat tərzi və dəyərlər sistemindən "qətiyyətlə üz döndərmiş, hərbçi sadəliyini, nizam-intizamını və ləyaqətini sarayın mənəvi bataqlığını xatırladan rahat, isti otaqlardan, əyləncədən üstün tutmuşdu".**



Rzaqulu üçün Nadirin şücaətli və aralıqsız mücadiləsinin sərvət, hakimiyyət və eyş-işrət gətirən nəticələri məqbul, lakin bu yolda verilən qurbanlar, düçar qalınan təhlükələr və bitməyən müharibələr yorucu idi. Ona görə bir an öz sayıqlığını itirən Rzaqulu açıq şəkildə "Mənim atam bütün dünyanı işğal etmək niyyətinə düşüb, ona görə də bizə və bütün İrana zülm edir. Hər yerdə döyüşlər davam edir. O ölməyincə nə bizim, nə İranın, nə də qonşu dövlətlərin dinclik tapması qeyri-mümkündür", - deyərək, atasını təhdid etmişdir. Klassik bir deyim olan "Təbiət dahi insanların övladlarında dincini alır" ifadəsi Nadirin oğluna da aiddir. Əslində, Nadir şahla oğlu Rzaqulunun qarşıdurması dünya ədəbiyyatında dəfələrlə əksini tapmış tarixi qəhrəmanla bayağı və bəsit bir insanın münasibətləri mövzusunu xatırladır. Bu baxımdan, bir ata və dahi dövlət xadimi kimi Nadirin taleyi onun öz müasiri olmuş I Pyotrun həyat yoluna müəyyən mənada bənzəyir. Yeni və müasir Rusiya yaratmaq yolunda yorulmadan mübarizə aparan Pyotr ənənəvi və mühafizəkar mühitin tərəfdarı olan oğlu Aleksey ilə qarşı-qarşıya gəlmiş və onu edam etdirmək məcburiyyətində qalmışdı.

Pyotrdan fərqli olaraq, Rzaqulunun gözlərinə İransayağı üsulla mil çəkdirən Nadir bu hadisədən o dərəcə sarsıntı keçirmişdi ki, əslində, sonu görünməyən mübarizənin məğlubiyyətə uğradığını, özünün böyük və yüksək amallarının o dövr İran mühitinin bataqlığında boğulduğunu anlamışdı. Həyatının sonuna doğru artıq ümidsiz mübarizədən bezginliyə düçar olan Nadir şah hətta taxt-tacdan əl çəkmək və hakimiyyətini oğulları və nəvəsinə təhvil vermək haqqında niyyətini bəyan etmişdi. Akademik Ramiz Mehdiyev Nadir şah şəxsiyyətini dəyərləndirməyə cəhd göstərən bəzi tarixçiləri bütün qeyd edilən məqamları nəzərə almağa dəvət edir, ona birmənalı şəkildə yalnız "qaniçən" və "müstəbid" ünvanını verməklə elmi baxımdan məsuliyyətsiz davrandıqlarını vurğulayır.

Biz isə bir daha təkrar etmək istərdik ki, bütün bir cəmiyyətin mühafizəkarlığı, fanatizmi və dözümsüzlüyü ilə aralıqsız mücadilə hətta Nadir kimi dəmir iradəli və müqtədir bir şəxsiyyətin imkanı xaricində idi. Və təbii ki, belə bir cəmiyyətin mənəvi istibdadı onu sındırdı. Mühafizəkar bir ölkədə ictimai dəyişikliklərin ilkin şərti maarifçilikdən, elitanın və sonra da geniş kütlələrin düşüncə tərzinin dəyişdirilməsindən, cəmiyyətə müasir dəyərlərin təlqin edilməsindən keçirdi. Yalnız dünyanın gedişatını və özünün mövcud halını bütün gerçəkliyi ilə doğru dəyərləndirə bilən və yeniliyə meyil etməyə başlayan kütlələr islahatların təşəbbüskarlarını dəstəkləyə və hərəkatın aparıcı qüvvəsinə çevrilə bilər. Bu mənəvi və əqli yenilənmə missiyasını böyük mütəfəkkirimiz Mirzə Fətəli Axundzadə öz üzərinə götürərək, "Aldanmış kəvakib", "Kəmalüddövlə məktubları" və digər dahiyanə əsərlərini ərsəyə gətirməklə Azərbaycan və İran cəmiyyətlərini yeni dövrə hazırlamışdı. Axundzadənin beyinlərdə və ruhlarda yaratdığı inqilab Azərbaycan Xalq Cümhuriyyətinin və İranda Səttar xan fenomeni və Məşrutə hərəkatının qələbələri ilə nəticələnmişdi. Ancaq unutmayaq ki, bu zəfərlərin bünövrəsində Nadir kimi parlaq şəxsiyyətin qəhrəmancasına mücadiləsi və həyat faciəsi durur. Heç şübhəsiz, Axundzadənin yolunu davam edən Azərbaycanın böyük maarifçiləri bu mənəvi və üzvi əlaqəni duyur və xalqın tarixinin ana nöqtələrini dərk etmək üçün öz axtarışlarında Nadirin surətinə təsadüfən dönə-dönə müraciət etmirdilər.

M.Aksvörtinin "Nadir şah" kitabı ilə tanış olduqca tariximizlə bağlı digər son dərəcə mühüm və konseptual suallar da ortaya çıxır və bir daha düşünürsən ki, bizim şərqşünaslıq və tarixşünaslıq elmləri bu problemlərin həllini prioritet istiqamətlərə çevirməlidir.

Kitabdan meydana gələn önəmli məsələlərdən biri tariximizdə məzhəb, sünni-şiə ixtilaflarının yeri və rolu ilə əlaqədardır. Ümumiyyətlə, orta əsrlərin bir çox dövrlərində dövlət siyasəti və ictimai-mənəvi həyatda özünü büruzə verən ifrat dini təəssüb hər zaman müxtəlif təlatümlərə yol açmışdır. Bu, istər Səfəvi dövləti, istər Osmanlı imperiyasının tarixi üçün xarakterikdir. M.Aksvörti Səfəvilərin son dövrlərində, xüsusilə daha çox vaxtlarını eyş-işrətlə keçirən Şah Süleyman və oğlu Sultan Hüseyn zamanında mərkəzi hakimiyyətin zəifləməsi, dövlət işlərində saray əyanları və ruhanilərin, o cümlədən tanınmış şiə müctəhidi Məhəmməd Bağır Məclisinin söz sahibi olmalarının necə acınacaqlı nəticələr verməsini təsvir edir. Belə ki, Məclisinin təsiri ilə ölkədə şiəliyə zidd kimi dəyərləndirilən hər şeyə qadağa qoyulmuşdu. İçki məclisləri, qəhvəxanalar, şən musiqi və rəqslərlə bərabər İslam mədəniyyəti və ədəbiyyatı tarixində özünəməxsus və önəmli yeri olan təsəvvüf də yasaq edilmişdir. Bundan başqa, qadınların sərbəstliyi bir qədər də məhdudlaşdırılmış və düşüncə azadlığı ilə bağlı digər qadağalar gətirilmişdi. Müəllifin ifadəsi ilə, Səfəvilərin son dövründə "Məhəmməd Bağır Məclisi bir növ İslam inqilabı həyata keçirmişdi". Yeri gəlmişkən qeyd etmək gərəkdir ki, bu həmin Məclisidir ki, onun dini görüşləri və risalələri M.F.Axundzadə tərəfindən "Kəmalüddövlə məktubları"nda kəskin şəkildə tənqid edilmişdir.

Hər şeyin olduğu kimi, dini təəssübün də ifratı hər zaman mənfi nəticə verir. Tarixdə dini pedantların və özünün "ilahi" missiyasına fanatikcəsinə inanan möminlərin fəaliyyəti görünməmiş bir şey deyil. Onlar səmavi kitablarda buyurulan hər bir əmri mütləq şəkildə və riqoristcəsinə tətbiq etməklə cəmiyyəti mənəvi cəhətdən islah edəcəklərinə inanır və bu yolda, adətən, ən sərt və qəddar tədbirlərin görülməsindən çəkinmirlər. Məsələn, XV əsrdə Avropanın ən qabaqcıl Renessans şəhərlərindən biri olan Florensiyada Cirolamo Savonarola adlı bir dominikan rahibinin hakimiyyəti ələ keçirməsilə burada xristianlığın "qızıl əsrini", yəni özünün təxəyyülündə yaşayan ideal bir xristian cəmiyyətini "bərpa" etmək arzusuna düşdüyü, bu məqsədlə sərt və bəsit dini qanunların və yasaqların tətbiqinə başlaması, musiqi, rəqs, karnaval və digər əyləncələrə qadağa qoyması, şəhər əhalisinə qarşı dini terror tətbiq etməsi tarixi ədəbiyyatda geniş işıqlandırılmış faktdır. Savonarolanın Renessans dövrünün humanist idealları və dünyagörüşünə zidd olan sxolastik əqidələri və fanatik əməlləri tezliklə şəhərin bütün ictimai-mədəni həyatının çökməsinə və şəhər əhalisinin üsyanına səbəb olmuşdu. Üsyan nəticəsində rahib qətlə yetirilmiş, şəhər sakinləri yenidən öz ənənəvi həyat tərzinə dönmüşdülər. Dövrün məşhur florensiyalı tarixçisi və siyasət nəzəriyyəçisi Nikkolo Makiavelli Savonarolanı öz moizələri ilə insanların şüurunu manipulyasiya edən riyakar bir fanatik kimi dəyərləndirir, özünün "Hökmdar" əsərində onun tətbiq etdiyi dini qaydaların insanların inamını itirməsinə görə çökdüyünü yazırdı.

Səfəvi dövlətinin son dövründə, M.Aksvörtinin ifadəsi ilə, "İslam inqilabının" baş verməsi də ağır nəticələrlə sonuçlanmışdı. Məhəmməd Bağır Məclisi və onun davamçıları tərəfindən aşırı şiə qaydalarının tətbiqi cəmiyyətin daha mömin olmasına, şəriət qaydalarına uyğun yaşamasına deyil, tam əksinə, dini dözümsüzlüyün və fanatizmin artmasına, daxili balansın pozulmasına, məzhəblərarası ixtilafın kəskinləşməsinə və ideoloji-ictimai ziddiyyətlərin açıq qarşıdurma səhifəsinə keçməsinə gətirib çıxarmışdı. M.F.Axundzadə "Aldanmış kəvakib" əsərində Şah Abbas dövründə baş verən hadisələri təsvir edərkən, mollabaşı vəzifəsini tutan Axund Səməd surətinin öz ifadəsi ilə ölkədə aparılan dini siyasətin əsas mahiyyətini açıqlayaraq yazırdı ki, Şah Məhəmməd Xudabəndənin dövründə İran və ölkənin paytaxtı olan Qəzvin əhalisinin yarısı sünni məzhəbində idi; ancaq mollabaşının tutduğu yol və həyata keçirdiyi tədbirlər nəticəsində bütün sünnilər "isnə-əşəriyyəyə hidayət" edilmiş, yəni şiəliyi qəbul etməli olmuşdular. Mollabaşının sözləri ilə "indi Allahın kərəmindən səfheyi-İranda beş-altı nəfərdən ziyadə sünni tapılmaz. Bu xüsusda İran xalqından dəxi kəmali-riyazməndliyim var ki, bəmücərrədi-təklif qədimi ata və babalarının məzhəblərindən əl çəkib hidayətə rağib oldular". Şübhəsiz, vəziyyəti bu şəkildə təsvir etdiyi zaman Axundzadə Səfəvilərin son dövründə Məclisinin təsiri ilə aparılan dini siyasətə də işarə edirdi. M.Aksvörtinin qeyd etdiyi kimi, Sultan Hüseynin həmişəki kimi başlıca məsləhətçiləri mollalar olduğu üçün ölkənin sünnilər yaşayan bölgələrində üsyanlar başlamış, onların ən bariz nümunəsi də Şirvan qiyamı olmuşdur. Bu dövrdə hakimiyyətin ölkədə apardığı ağlasığmaz dərəcədə uğursuz dini siyasəti nəticəsində Şirvanda "sünnilər öldürülür, onların kitabları yandırılır və onların məscidləri isə tövlələrə çevrilirdi". Öz növbəsində qiyam qalib gəldikdən və 1721-ci ildə Şamaxıda Səfəvi hakimiyyəti devrildikdən sonra "ətraf ərazilərdə şiələrin kütləvi qırğını başladı. Şiələrin başçısı, onun qardaşı oğlu və digər qohumları izdiham tərəfindən tikə-tikə doğrandı, onların əti isə itlərə yem oldu". İngilis şərqşünasının Şirvanda məzhəb ixtilafı zəminində meydana çıxan faciəvi hadisələrlə bağlı verdiyi bu məlumat hər bir Azərbaycan tarixçisini və ümumiyyətlə, vətəndaşını düşündürməyə bilməz. Zənnimcə, gənc nəsillərin yaddaşında tarixin ağır ibrət dərsi kimi həkk olunması üçün bu hadisələr məktəb dərsliklərində öz əksini tapmalıdır. Azərbaycan cəmiyyəti tariximizdə bəzən özünü büruzə vermiş dini fanatizm təzahürlərinin eyni xalqın övladlarını, eyni torpağın sakinlərini bir-birinə qarşı nə qədər qəddar və amansız davranmaya vadar etdiyini, eyni dili danışan və mədəniyyəti bölüşən insanların özləri özlərinə necə düşmən kəsildiyini, nəticədə dövlətin məhv olduğunu, vətən torpaqlarının əldən getdiyini bilməlidir ki, belə meyillərin təkrarlanmasına, bəzi xarici qüvvələrin bu meyillərə gizli və açıq şəkildə rəvac verməsinə qarşı möhkəm milli "immunitetə" sahib olsun.

Məzhəb ixtilafı yalnız ölkənin daxili həyatına deyil, xarici münasibətlərinə də öz mənfi təsirini göstərmişdir. XVI əsrin əvvəllərindən başlayan Osmanlı-Səfəvi qarşıdurması və müharibələri istər Azərbaycan, istərsə də ümumi türk tarixinin ən qanlı və faciəvi səhifələrini təşkil edir. Əslində, beynəlxalq ticarət yollarının nəzarəti və regionda hərbi-siyasi üstünlük uğrunda aparılan bu mübarizəyə məzhəb qarşıdurması kimi dini-ideoloji xarakter verilməsi iki türk xalqı arasındakı münasibətləri son orta əsrlərdə zəhərləyən ən mühüm amil olmuşdur. Bu ziddiyyət və arası kəsilməyən silahlı toqquşmalar hər iki dövləti daxilən sarsıtmış, onların iqtisadiyyatını və hərbi qüdrətini çökdürmüş, minlərlə insanın ölümünə və ya yurdlarını tərk etməsinə gətirib çıxarmış, bir çox şəhər və kəndlərin xarabazarlığa çevrilməsinə və nəticə etibarilə Osmanlı dövlətinin və Azərbaycanın Avropa müstəmləkəçiliyi qarşısında zəif vəziyyətə düşməsinə səbəb olmuşdur. Xüsusilə Səfəvi dövləti qurulduğu dövrdə bir metropoliya, siyasi və iqtisadi mərkəz rolunu oynayan Azərbaycanın XVIII əsrdə artıq dövlətin sıravi bir əyalətinə çevrilmiş olması düşündürücü faktdır. Və Azərbaycanın maarifçi mütəfəkkirləri bu məzhəb ixtilafını Mirzə Ələkbər Sabirin sözləri ilə tamamilə düzgün dəyərləndirmişdilər:

*Bir vəqt Şah İsmayilü Sultan Səlimə*
*Məftun olaraq eylədik islamı dünimə,*
*Qoyduq iki tazə adı bir dini-qədimə,*
*Saldı bu təşəyyö, bu təsənnün bizi bimə...*
*Qaldıqca bu halətlə səzayi-əsəfiz biz!*
*Öz dinimizin başına əngəlkələfiz biz!*

Nadir kimi zəkalı və milli təəssübkeşliyi ilə fərqlənən bir liderin cəmiyyətin daxilində dini zəmində baş verən çaxnaşmaların, eyni zamanda iki türk dövlətinin bir-biri ilə məzhəb donu geydirilmiş uzun müddətli mübarizəsinin acınacaqlı nəticələrini gözardı etməsi mümkün deyildi. Nadir şahın fəaliyyətinin ən mühüm cəhətlərindən biri bu ixtilafı aradan qaldırmaq, cəmiyyətə dini barış və dözümlülük gətirmək təşəbbüsü idi. O, dini sahədə həyata keçirdiyi islahatların amalını dəfələrlə bəyan edir, məqsədinin qətiyyən İslam dinini zəiflətmək və ya onun əsaslarını sarsıtmaq olmadığını bildirirdi. Əksinə, məzhəb ayrı-seçkiliyinin və ixtilafının İslam aləminə, müsəlman türk dövlətlərinin birliyinə necə ağır zərbə vurduğunu, onları xarici təhlükə və təcavüzlərin qarşısında zəif düşürdüyünü hamıdan yaxşı dərk edən Nadir müsəlmanların mənəvi birliyi və İslam dövlətləri arasında həmrəyliyin yaranması tərəfdarı olduğunu açıqlayırdı. Təsadüfi deyil ki, Osmanlı sultanı I Mahmuda ünvanladığı məktubda o, "Rum padşahını" nümayişkaranə ehtiramla "cahan şahlarının ən əzəmətlisi, dövran xaqanlarının ən böyüyü, Allahın yaratdığı ölkələrin himayədarı, Allaha ibadət edənlərin qoruyucusu, Allahın yerdə olan kölgəsi, kafirlər ilə müşriklərin qənimi, İslam ilə müsəlmanların yardımçısı" olan "islampənah hökmdar" adlandırır, Əfşar və Osmanlı dövlətlərinin arasında mehriban münasibətlər yaratmaqda özünün "məzhəblərin paklaşmasından, iki dövlətin möhkəmləndirilməsindən və iki tərəfin müsəlmanlarının dostlaşmasından başqa" bir məqsədinin olmadığını xüsusi vurğulayırdı. Bu məqsədlə Nadir şah məsələnin yalnız iki qüdrətli türk-müsəlman dövlətinin əlbirliyi və həmrəyliyi ilə həll ediləcəyinin fərqində olduğunu nümayiş etdirir və Osmanlı sultanına öz məramını izhar edən namələr və elçiliklər göndərirdi. İxtilafı aradan qaldırmaq üçün o, Azərbaycan və İranda şiəliyin radikal və açıq antisünni təzahürlərini və mərasimlərini qadağan etməyin və Osmanlı dövləti və üləmaları tərəfindən də, öz növbəsində, cəfəri məzhəbinin digər dörd ortodoksal sünni məzhəbi (hənəfi, şafii, maliki, hənbəli) ilə yanaşı, İslam dininin beşinci rüknü kimi tanınmasını zəruri hesab edirdi. Öz niyyətlərini həyata keçirmək məqsədilə Nadir şah Nəcəf şəhərində İmam Əli türbəsində tanınmış və nüfuzlu şiə və sünni məzhəblərinin nümayəndələri və ruhanilərinin görüşünü təşkil edərək dini məsələlərlə bağlı aralarında razılığa gəlib məzhəb ixtilafına son qoymağı tələb etmişdi. O, Məhəmməd peyğəmbərin və Qurani-Kərimin "tək və məzhəbdə müttəhidül-üsul", yəni eyni əsilli olduqlarını, cəfəri məzhəbinə də digər "dörd rəvac məzhəblə bərabər beşinci məzhəb deyilməsini" düzgün hesab edirdi. Nadir şah Sultan Mahmuda yazırdı ki, "buna qanuni yolla və sözlə nə mane və əngəl ola bilər", əgər "uca Osmanlı dövlətinin bəzi məmurları bu məsələnin çözülməsinə maneçilik törətsələr, hər birisinin qərəzliliyi onun xatirəsinə salınacaqdır, çünki qardaşlıq aləmində sözügedən işlərin təkrarı ilə təzkarı", yəni xatırladılması lazımdır.

Böyük ehtimalla Nadir şahın bu sahədə özünün sələfi olmuş Fransa kralı IV Henri Burbonun 1598-ci ildə "Nant edikti" adı ilə qanun çıxardığı və beləliklə, Fransada böyük faciələr və qanlı toqquşmalarla müşayiət olunan katoliklərlə qugenotlar arasında onilliklərlə davam edən dini müharibələr dövrünə son qoyduğu, məzhəblər arasında barış və dözümlülük şəraitinin əsasını yaratdığından xəbəri yox idi (ehtimal etmək olar ki, onun son illərində şəxsi həkimi olmuş fransalı iyezuit Pyer Lui Bazen, bəlkə də, bu barədə şaha bir məlumat verə bilərdi). "Nant edikti"nin Fransanın sonraki yüzilliklərdə hərbi-siyasi, iqtisadi və mədəni çiçəklənməsində fövqəladə yeri olmuşdur. IV Henri kimi zəka və uzaqgörənliyi ilə fərqlənən Nadir şah da sünni-şiə ixtilafına son qoymadan müsəlman xalqlarının düşdükləri bataqlıqdan çıxa bilməyəcəklərini, bu sahədə məsuliyyətli və qətiyyətli addımların zərurətini gözəl anladığı üçün Osmanlı sultanına belə bir təkliflə müraciət etmişdi. O dövrdə Nadirin irəli sürdüyü bu layihə, sözün əsl mənasında, inqilabi xarakter daşıyırdı. Doğrudur, onun şəkli və ya bəzi cəhətləri müəyyən mənada qəribə və ya qəbuledilməz görünə bilərdi. Eyni zamanda belə bir layihənin XVIII əsrin müsəlman Şərqi mühitində həyata keçirilməsinin nə dərəcədə mümkün olması da ciddi suallar doğurur. Məlumdur ki, istər sünni üləmaları, istərsə şiə mollaları şahın bu planına bəzən açıq etiraz edir, bəzən də onu üstüörtülü şəkildə sözün tam mənası ilə sabotaj edirdilər. M.Aksvörtinin qeyd etdiyi kimi, sünni və şiə ruhanilərinin Nəcəfdə gəldikləri zahiri razılığa baxmayaraq, "hər kəs evinə getdikdən sonra onlar yenə də əvvəlki ibadətlərinə davam etdilər. Bu razılaşma, demək olar ki, heç nəyi dəyişmədi". Bununla belə, bir şey aydındır ki, bu sahədə islahatların aparılması həyati önəməmalik zəruri məsələ idi. Əfsus ki, fransız elitasından fərqli olaraq, müsəlman xalqlarının siyasi və dini rəhbərləri Nadirin bu təklifinin mahiyyətini anlamaqda çətinlik çəkdilər və ya xalqın gələcəyi üçün mühüm olan məsələni öz dar mənfəətlərinə qurban verdilər. Bu siyasi və strateji dar görüşlülüyün acı nəticələrini hər iki dövlətin xalqları və müsəlman aləmi tezliklə hiss etməyə başlayacaqdı. Bu gün Yaxın Şərqin bir sıra ölkələrində məzhəb ixtilafı zəminində baş verən və minlərlə insanın həyatına son qoyan, şəhər və kəndlərin dağılmasına səbəb olan qanlı toqquşmalar və dini terrorizm, əslində, Nadir şahın öz dövrünü nə qədər uzaqgörənliklə qabaqladığını göstərmirmi?

Bu hadisə həm də bir daha Nadirin nə dərəcədə cəsarətli və dövlət məsuliyyətinə sahib bir lider olduğunu nümayiş etdirən faktdır. Fransız kralının fəaliyyətindən xəbərsiz olsa da, Dehlini tutmuş Nadir, heç şübhəsiz, Böyük Moğol sultanı Əkbərin dini sahədə islahat təşəbbüsləri barədə məlumata malik idi. Polikonfessional Hindistan şəraitində dinlərarası ixtilafları aradan götürmək və bu sahədə ahəngdar bir cəmiyyət qurmaq məqsədilə Əkbər şah "dini-ilahi" adı ilə yeni sinkretik din yaratmaq təşəbbüsü ilə çıxış etmiş, amma uğur qazana bilməmişdi. İnsanların dini mühafizəkarlığını aradan götürmənin, onları xurafat və mövhumatdan azad etmənin son dərəcə ağır bir məsələ olduğunu dərk etsə də, Nadir şah öz xalqının və dövlətinin gələcək inkişafı üçün həyati önəmə sahib olan bu islahatları aparmaqda tərəddüd etmədi. Ancaq çox təəssüflər olsun ki, onun təşəbbüsləri uğurla nəticələnə bilmədi. Sabir Nadirin sünni-şiə qarşıdurmasına son qoymaq istəyini nəzərdə tutaraq ürək yanğısıyla yazırdı:

*Nadir bu iki xəstəliyi tutdu nəzərdə,*
*İstərdi əlac eyləyə bu qorxulu dərdə,*
*Bu məqsəd ilə əzm edərək girdi nəbərdə,*
*Məqtulən onun nəşini qoyduq quru yerdə,*
*Bir şeyi-əcibiz, nə bilim, bir tühəfiz biz,*
*Öz dinimizin başına əngəlkələfiz biz.*

Düşünürəm ki, bizim tarixşünaslıqda məzhəb ayrı-seçkiliyi və onun xalqımızın tarixinə gətirdiyi faciələr məsələsi ciddi və ətraflı şəkildə öz qiymətini almayıb və bu sahədə də dərin araşdırmaların aparılmasına ehtiyac vardır.

Kitabdan ortaya çıxan digər son dərəcə önəmli problem, ümumiyyətlə, Qərb şərqşünaslığında Azərbaycan tarixi və xüsusilə dövlətçilik tarixi məsələsinin dəyərləndirilməsi və ya bugünkü İran ərazisində tarixən mövcud olmuş dövlətlərin xarakteristikasıdır. İstər İran, istərsə də Qərb şərqşünaslığında, bir qayda olaraq, müasir İran ərazisində və ya digər bir istilahla "mərkəzi müsəlman torpaqlarında" qədim dövrdən başlamış müasir zamana qədər mövcud olmuş bütün dövlətlər, orada hakimiyyətdə olan sülalələrin etnomədəni mənşəyindən asılı olmayaraq, İran (Persia) dövlətçiliyi çərçivəsində qəbul edilir. Bu həssas problemin təhlilinə bəzi tədqiqatçıların əsərlərində bu və ya digər dərəcədə toxunulub. Qeyd etmək lazımdır ki, M.Aksvörtinin kitabına yazılan ön sözün də əhəmiyyətli hissəsi bu məsələnin dəyərləndirilməsinə həsr olunub.

Bu sətirlərin müəllifi də özünün "Səlcuqilərdən Osmanlılara" adlı monoqrafiyasında və bəzi məqalələrində problemin nəzəri əsaslarını tədqiq etməyə səy göstərmiş və müəyyən nəticəyə gəlmişdir. Zənnimcə, məsələnin mahiyyəti qısaca olaraq bundan ibarətdir ki, orta əsrlər müsəlman ədəbiyyatında, xüsusilə İran mənşəli tarixçilərin və onların təsiri ilə bir sıra Osmanlı tarixçilərinin yazdıqları əsərlərdə qədim dövrlərdən başlayaraq mövcud olan və varlığını orta əsrlərdə də davam etdirən "vahid İran dövlətçiliyi" nəzəriyyəsi qəbul edilmişdir. Bu nəzəriyyəyə görə, əfsanəvi Pişdadilər və Kəyanilərdən başlayan bir hakimiyyət xətti Əhəmənilər, Sasanilər və digər sülalələrdən keçərək, islam dövründə Samanilər, Səlcuqilər, Elxanilər, Cəlayirilər, Teymurilər, Qaraqoyunlular, Ağqoyunlular və Səfəvilərdə öz "qanuni" davamını tapmışdır. Yəni istər əfsanəvi Cəmşid və Kəyumərslər, istər Keyxosrov və Daralar, istər Xosrov Ənuşirəvan və Şapurlar, istərsə də Məlikşahlar, Qazan xanlar, Şeyx Üveyslər, Cahanşahlar, Uzun Həsənlər, Şah İsmayıllar - bunların hamısı vahid İran dövlətçilik zəncirinin həlqələri sayılırdı. Bütün bu hökmdarların tamamilə müxtəlif dini və etnik mənsubiyyətinə baxmayaraq, onların hamısının ortaq cəhəti "İran hökmdarı" və ya orta əsrlər müəlliflərinin çox işlətdikləri ifadə ilə desək, "Əcəm padşahları" olmaları idi. Beləliklə, "mərkəzi müsəlman torpaqlarında" hökmranlıq etmiş türk sultanları və monqol xanlarını əski İran şahları kimi "Əcəm padşahı" elan etməklə orta əsr tarixçiləri Yaxın Şərqin türk-monqol dövlətlərini İran dövlətçiliyi tarixinin içində əridirdilər.

Farsdilli ədəbiyyatda belə misallara tez-tez rast gəlmək mümkündür. Belə ki, Qəznəvi sülaləsinin banisi olan Səbük Təkin şamanist türk nəslindən gəlməsinə baxmayaraq, qədim İran şahlarının xələfi elan edilmişdi. Səlcuq dövrünün tanınmış şairlərindən Əbdülvase Cəbəli Xarəzmşah titulu ilə Xarəzm bölgəsinin idarəsinə təyin olunmuş türk əmiri Toğrul Təkini öz qəsidəsində "pəhlivani-mülki-İran" kimi vəsf edirdi. Və ya Anadoluda Qeysəriyyə əyanlarına ünvanlanmış məktubunda Elxanilərin vəziri Fəzlullah Rəşidəddin Qazan xanı "İranın hökmranı və Kəyani şahlarının varisi" adlandırırdı. Beləliklə, öz dövrünün türk və monqol xanlarını qədim İran şahlarının varisləri kimi qələmə verməklə bu tarixçilər "vahid İran dövlətçilik zəncirinin" davam etdiyi fikrini ictimai şüura qəbul etdirirdilər. Bu da, əslində, şüubiyyə dövründə siyasi-mədəni irançılıq ideyalarını canlandıran fars mütəfəkkirlərinin nəzəriyyələrinə tamamilə uyğun idi. Ağqoyunlu dövründə özünün "Ərznamə" əsərini Uzun Həsənin oğlu Sultan Xəlilə həsr edən Cəlaləddin Dəvvani oğuzların bayandur boyundan gələn bu Ağqoyunlu şahzadəsinin şəcərəsini açıq şəkildə əfsanəvi İran-fars şahı Cəmşidə bağlayırdı. Səfəvilər zamanında, xüsusilə Şah Abbasın dövründə bu fikrin artıq ictimai şüurda kifayət qədər özünə yer etdiyini görürük. Belə ki, İspaniyaya mühacirət etmiş Oruc bəy Bayat öz ölkəsinin tarixini avropalılara tanıdarkən məhz bu nəzəriyyənin müddəalarından çıxış edirdi. O, hətta Əmir Teymuru İran şahı kimi təqdim edərək yazırdı: "Bizə elə gəlir ki, biz Teymurləngə Persianın (İranın) şahlarından biri kimi baxa bilərik".

Mühüm cəhət ondan ibarətdir ki, həmin nəzəriyyə bu gün də dünya şərqşünaslıq mediyevistikasına təsirsiz qalmamışdır. Təsadüfi deyil ki, Qərb tarixşünaslığında, hətta bir sıra türk alimlərinin əsərlərində orta çağda "mərkəzi müsəlmən torpaqlarında" və ya "Əcəmdə" dövlətlər qurmuş və hakimiyyətdə olmuş türk-monqol sülalələri İran şahları kimi təqdim edilirlər. O cümlədən M.Aksvörti bu nəzəriyyənin davamçısı kimi çıxış edərək Nadir şahı İran hökmdarı, onun qurduğu Əfşar dövlətini isə ənənəvi İran dövləti kimi dəyərləndirir. Beləliklə, Əhəməni və Sasani dövründəki qədim İranın fars mənşəli şahənşahları ilə türk-monqol sülalələri arasında prinsipial tipoloji fərq nəzərdən qaçır və ya qaçırdılmağa çalışılır. Bununla da sanki tarix boyu vahid İran dövlətçiliyi xəttinin mövcud olduğu fikri müdafiə edilir.

Halbuki İran qədim dünyanın bütün digər ölkələri kimi nə din, nə mədəniyyət, nə dil, nə də dövlətçilik baxımından tarix boyu davamlılıq və vahid xətt nümayiş etdirməmişdir. Əksinə, bugünkü İran ərazisində minilliklər ərzində bir sıra müxtəlif etnosların gəlib yerləşməsi ilə burada köklü etnomədəni və sosial-siyasi transformasiyalar baş vermişdir. Müasir İranın titul etnosu sayılan farslarla bu torpaqların qədim dövr əhalisini yalnız etnonim eyniliyi birləşdirir. Din, mədəniyyət və hətta dil bu müddət ərzində dəyişmişdir. Bu dəyişikliklərin baş verməsində bir sıra amillər, o cümlədən öncə ərəb-müsəlman, daha sonralar türk-monqol fəthləri böyük rol oynamışdır. Bu baxımdan, orta əsrlərdə İran ərazisini də əhatə edən və türk sülalələri tərəfindən qurulub idarə edilən dövlətləri "vahid İran dövlətçiliyi zəncirinin" üzvi həlqələri kimi dəyərləndirmək doğru deyil. Atilla Hun dövləti və ya Lanqobardlar krallığını İtaliya dövlətləri olaraq dəyərləndirmək yanlış olduğu kimi, Ağqoyunlu və ya Əfşar dövlətlərini də ancaq İrana aid eləmək, onları sadəcə İran dövlətləri kimi təqdim etmək eyni dərəcədə səhvdir. Lakin təəssüf ki, bu fikir orta əsrlərdə olduğu kimi, bu gün də istər İran, istərsə də Qərbdə özünə müdafiəçi tapmağa davam edir.



M.Aksvörtinin kitabı ilə tanış olduqca tarixşünaslığımızda tədqiqi önəmli olan bir sıra digər məsələlər də diqqəti cəlb edir. Məsələn, elə kitabın sərlövhəsindən də göründüyü kimi, Nadir şahın həyat yolu müəllif tərəfindən "tayfa döyüşçüsündən fateh müstəbidə qədər" kimi dəyərləndirilir. Xüsusi olaraq qeyd etmək gərəkdir ki, Qərb şərqşünaslığında tayfa və dövlət, köçərilik və oturaqlıq dualizmi türk xalqlarının tarixinin fundamental problemi kimi göstərilir. Düşünürəm ki, bizim elmimiz də nisbətən diqqətdən kənarda qalmış bu problemi inkar edə bilməz və bu sahədə ciddi araşdırmalar aparılması günün tələbi kimi qarşıya çıxır.

Son olaraq Nadir kimi cəmiyyətin aşağı təbəqəsindən çıxmış, öz parlaq zəkası, cəsarəti, qətiyyəti və istedadı sayəsində möhtəşəm dövlət yaradıb şahlıq mənsəbinə yüksəlmiş, həyatını böyük amal və məqsədlərə həsr etmiş, bütün qüdrətli fateh və hökmdarlar kimi hədəfinə yetişmək uğrunda addımladığı yolda səbir, səxavət və rəhmdillik nümayiş etdirməklə bərabər, qəddarlıq və amansızlıq göstərməkdən də çəkinməmiş, adını bəşər tarixinə yazmış Nadirin faciəli ölüm hadisəsindən də yan keçmək mümkün deyil. Əslində, bu böyük şəxsiyyətin mənən bu dünyanı tərk etməsi fiziki ölümündən bir neçə il əvvəl baş vermişdi. Və bu həqiqəti ilk dəfə səsləndirən onun gözləri ovulmuş sevimli oğlu Rzaqulu oldu. M.Aksvörti yazır: "Rzaqulunun gözləri kor olandan 3 gün sonra Nadir oğlunun yanına gəldi. O, şahzadənin başını öz sinəsinə qoyaraq onu öpür və göz yaşlarına boğulurdu. Orada olan saray əyanlarının çoxu da göz yaşlarını saxlaya bilmədi. Əvvəlcə Rzaqulu danışmaq istəmirdi, lakin sonra belə dedi: "Gərək biləsən ki, mənim gözlərimin nurunu almaqla sən özünü kor qoydun və öz həyatını isə məhv etdin". Bütün tarixi mənbələr etiraf edir ki, oğlunun faciəsi, əslində, Nadirin özünün şəxsi faciəsinə çevrildi, onun həyatının fiaskosu oldu. Saray tarixçisi Mirzə Mehdi xan Astarabadi şahın ölümündən bir neçə il sonra öz keçmiş hökmdarı haqqında yazırdı ki, hakimiyyətinin ilk illərində Nadir şah ölkəni ədalət və qayğı ilə idarə edir və buna görə ölkənin bütün əhalisi onu qorumaq üçün canlarından keçməyə belə hazır idi. Ancaq sonra o, "pisniyyətli casusların, narazı məmurların təhriki ilə ən yaxşı və sevimli oğlu Rzaqulunun gözlərini çıxartdı. Tez və axmaqcasına həyata keçirilən bu qəddar qərardan sonra vicdan əzabı çəkən Nadir sanki ağlını itirdi". Onun bütün mənliyini sarsıdan bu faciə həm də həyat və fəaliyyətinin dönüş nöqtəsi, ömrünün son pərdəsinin başlanğıcı oldu. Bundan sonra hərbi işlər, idarəçilik və şəxsi güzəranında get-gedə daha çox uğursuzluqlara düçar olan Nadir şah bu mənəvi yükün ağırlığına dözə bilməyib əvvəlki həyat eşqini, dinamizm və qətiyyətini itirdi. Onun öz övladına qarşı amansız hərəkətinin səbəbi isə bəşər tarixində bütün taxt-tacları kölgə kimi müşayiət edən saray əyanlarının intriqaları, elit qruplaşmaların hakimiyyət və var-dövlət uğrunda daxili çəkişmələri və hökmdarla varisi arasında səpdikləri etimadsızlıq toxumları oldu. Tədricən Rzaqulunun təcrübəsizliyi və səbatsızlığından, Nadirin isə təbiətində olan çılğınlıqdan istifadə edən əyanlar onların hər ikisini hörümçək kimi məharətlə və səbirlə hördükləri tora salmağa müvəffəq oldular. Atasına qarşı törədilən sui-qəsddə Rzaqulunun birbaşa iştirakı və günahı olmasa da, o, görünür, bu işdən tamamilə xəbərsiz də deyildi. Lakin Nadirin canına qıyıb onu aradan götürmək niyyətində olan əyanların sui-qəsd cəhdi uğursuzluqla nəticələndikdə bütün suçu Rzaqulunun üzərinə atmağı bacardılar. Onsuz da oğlundan şübhələnən və qəzəbindən məsələni sona qədər araşdırmağa səbri yetməyən Nadir öz varisinin gözlərinə mil çəkmək əmrini verməklə həyatda öz böyük planlarının üzərindən də xətt çəkmiş oldu.

Rzaqulunun kor edilməsi bir hökmdar ailəsinin daxili və faciəvi bir epizodu kimi görünə bilər, çünki Nadir tarixdə öz övladına qıyan birinci və yeganə hökmdar deyildi. Xüsusilə Səfəvi dövründə şahzadələrə qarşı belə "cəza" üsulu geniş yayılmışdı. Yenə də M.F.Axundzadə "Aldanmış kəvakib" əsərində bu qorxunc ənənəni kəskin şəkildə tənqid edir. Dövlət əyanlarının Yusif Sərracdan sonra taxta oturtmaq üçün namizəd axtardıqları və Şah Abbasın harada gizləndiyini bilmədikləri vaxt məlum olur ki, "Səfəviyyə şahzadələrinin heç biri səltənətə şayistə deyil: tamam kəməndiş və kordurlar. Bir parasını Şah İsmayıl sani (ikinci - Ş.M.) kor edibdir, bir parasın Şah Abbas özü". Lakin Nadir şahın varisinin gözlərinə mil çəkilməsi hadisəsinə bütöv bir xalqın tarixi nöqteyinəzərindən baxdıqda, onun mühüm rəmzi xarakter daşıdığı görünür. Çünki yuxarıda da qeyd edildiyi kimi, Rzaqulunun faciəsi Nadir şahın sonu və beləliklə, onun illərlə böyük fədakarlıq və qurbanlar sayəsində qurduğu dövlətin süqutu oldu. Bu isə, nəticə etibarı ilə bütün ölkənin yenidən parçalanması, ərazilərin itirilməsi, daxili hərbi qarşıdurmaların və silahlı toqquşmaların başlanması, şəhər və kəndlərin xarabazarlığa çevrilməsi, insanların məhv olması və öz ev-eşiklərindən məhrum olmasına gətirib çıxaracaqdı. Bu hadisə orta əsrlər tariximizdə mənsəbpərəstlik və hərislik duyğuları ilə hərəkət edən müxtəlif feodal qruplaşmalarının daxili çəkişmələri nəticəsində dövlətçiliyin necə çökməsinin klassik bir örnəyidir. Bu baxımdan akademik Ramiz Mehdiyevin xalqımızın tarixi taleyi ilə bağlı söylədiyi fikir maraqlı və diqqətəlayiqdir: "Dövlət maraqlarının mənsəbpərəstlik və hərislik duyğuları ilə hərəkət edən şəxslərin mənfəətlərindən daha yuxarıda dayanmadığı hər bir tarixi mərhələdə xalqımız bunun əvəzini müstəqilliyinin itirilməsi ilə ödəmiş, məhv olmaq təhlükəsi ilə üzbəüz qalmışdır. Müxtəlif vaxtlarda ayrı-ayrı qüvvələrin şöhrətpərəstliyi, vəzifə iddiası naminə yaratdıqları mənasız çəkişmələrin nəticəsidir ki, Azərbaycan öz tarixi torpaqlarının böyük bir qismini itirmiş, qüdrətli dövlətçilik ənənələrinə sarsıdıcı zərbə vurulmuşdur. İnanmaq istərdim ki, gələcək nəsillər bu dərslərin mahiyyətini lazımi qaydada anlayacaq, ondan zəruri nəticələr çıxarmağı bacaracaqlar".

*Beləliklə, Maykl Aksvörtinin "Nadir şah" monoqrafiyasının Azərbaycan dilində çap olunmasının əsas qayəsi sadəcə Qərb şərqşünaslığının uğurlu bir tədqiqatının Azərbaycan oxucusuna çatdırılması ilə məhdudlaşmır. Bu nəşrin məqsədi həm də Azərbaycan ictimaiyyətini öz tarixi və gələcəyi haqqında ciddi düşünməyə sövq etməkdən ibarətdir. Ona görə də "Nadir şah" kitabında ifadə olunan mətləblər müasir dövrümüz üçün də aktual və əhəmiyyətlidir.*

**Şahin MUSTAFAYEV,**
**akademik**

(Əvvəli qəzetimizin 25 iyul tarixli sayında)

# İlin birinci yarısında "161 - Qaynar xətt" Əlaqə Mərkəzinə 1970 müraciət daxil olub

İyulun 25-də Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən 2018-ci ilin birinci yarımili ərzində korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərlə bağlı kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları nümayəndələrinin iştirakı ilə mətbuat konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikası baş prokurorunun müavini - Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev görülmüş işlər barədə ətraflı məlumat verib.

Bildirilib ki, ulu öndər Heydər Əliyevin müəyyən etdiyi strateji kursun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən mükəmməl konseptual əsaslarla davam etdirilməsi nəticəsində ötən dövrlərdə olduğu kimi, 2018-ci ilin birinci yarısında da bütün sahələrdə irimiqyaslı uğurlara imza atılıb. Hüquqi-demokratik dövlət quruculuğunun inkişafına və cəmiyyətin sosial-iqtisadi rifahına hesablanmış müdrik siyasətin məntiqi nəticəsi olaraq, bu il aprelin 11-də keçirilən demokratik, azad və şəffaf seçkilər yolu ilə xalqımız dərin inam və etimadını bir daha nümayiş etdirərək İlham Əliyevi yenidən Azərbaycan Respublikasının Prezidenti seçib.

Ötən dövrdə dövlət başçısının siyasi fəaliyyətinin prioritet istiqamətlərindən olan korrupsiyaya qarşı mübarizə tədbirləri daha intensiv xarakter alıb, ölkəmizdə iqtisadiyyatın liberallaşdırılması, bürokratik əngəllərin aradan qaldırılması, məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, şəffaflığın və hesabatlılığın təmin edilməsi və s. korrupsiyaya qarşı mübarizə tədbirlərinə əsaslanan ardıcıl hüquqi və institusional islahatlar həyata keçirilib.

Xüsusi vurğulanıb ki, əvvəlki illərdə olduğu kimi, hesabat dövründə də prokurorluq orqanları korrupsiya ilə mübarizəni öz fəaliyyətinin başlıca xətti kimi müəyyənləşdirib. Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi prokurorluq orqanlarının digər qurumları ilə əlaqəli şəkildə bütün səylərini qarşıya qoyulmuş vəzifələrin uğurla və daha səmərəli şəkildə icra edilməsinə, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatların əsas təminatlarından olan ictimai-siyasi sabitliyin qorunmasına və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə yönəldib.

Bu müddətdə Baş İdarə tərəfindən vətəndaşların 3874 müraciətinə baxılıb, həmçinin 126 cinayət xarakterli material araşdırılıb. Həmin materialların 82-si (65 faiz) üzrə cinayət işi başlanılıb, 44 (35 faiz) material üzrə digər prokuror təsir aktları tətbiq edilməklə 28 vəzifəli şəxs intizam məsuliyyətinə cəlb olunub.

Bildirilib ki, korrupsiya hüquqpozmaları barədə müraciətlərin fasiləsiz rejimdə qəbulu məqsədilə yaradılan Baş İdarə ilə vətəndaşlar arasında mühüm əhəmiyyətli dialoq vasitəsi rolunu oynayan "161 - Qaynar xətt" Əlaqə Mərkəzinə hesabat dövründə 1970 müraciət daxil olub. Həmin müraciətlərin 16-sı üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanıb. Həmçinin əlaqəli dövlət qurumları ilə birgə görülmüş tədbirlər nəticəsində digər müraciətlərin müsbət həlli təmin olunmaqla vətəndaşların pozulmuş hüquqları bərpa edilib. Aşkarlanan qanun pozuntularının aradan qaldırılması məqsədilə müvafiq təşkilatlara təqdimatlar göndərilib.

Diqqətə çatdırılıb ki, ötən dövrdə Baş İdarənin əməliyyat qurumlarının keçirdikləri tədbirlər nəticəsində cinayət başında yaxalanmış şəxslər barəsində 4, əməliyyat üsul və vasitələrindən istifadə etməklə korrupsiya hüquqpozmaları barədə əldə edilmiş məlumatlar əsasında isə 5 cinayət işi başlanıb.

Cari ilin birinci yarısında Baş İdarədə 184 şəxs barəsində 115 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilib. Həmin cinayət işlərindən 79 şəxs barəsində 42 iş mənimsəmə və israf etmə, 50 şəxs barəsində 30 iş qulluq mövqeyindən istifadə etməklə dələduzluq, 14 şəxs barəsində 12 iş vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, 9 şəxs barəsində 9 iş rüşvət vermə (aktiv rüşvətxorluq) və şəxsi rüşvət verməyə təhrik etmə, 2 şəxs barəsində 2 iş rüşvət alma (passiv rüşvətxorluq), qalanları isə digər korrupsiya cinayətləri ilə bağlı olub.

Məhkəmələrə göndərilmiş cinayət işləri üzrə 51 milyon 194 min manat məbləğində maddi ziyandan ibtidai araşdırma mərhələsində 16 milyon 578 min manat və ya 32,5 faizinin ödənilməsi təmin edilib. Qalan ziyanın ödənilməsini təmin etmək məqsədilə 25 milyon 342 min manat dəyərində qiymətləndirilən əmlak üzərinə həbs qoyulması ilə yanaşı, qanunla nəzərdə tutulmuş digər tədbirlər görülüb.

Hesabat dövründə Baş İdarə rəisi, Baş İdarə rəisinin müavinləri, idarə və ya şöbə rəisləri, təşkilati və informasiya təminatı idarəsinin prokurorları tərəfindən ümumilikdə 250 vətəndaş qəbul edilib.

Kamran Əliyev vurğulayıb ki, korrupsiyaya qarşı mübarizədə qabaqlayıcı tədbirlərin mühüm əhəmiyyəti nəzərə alınaraq korrupsiya cinayətləri və hüquqpozmalarının yayıldığı sahələrin müəyyənləşdirilməsinə diqqət artırılıb. Preventiv tədbirlərin təsir gücünün məhz bu istiqamətlərə yönəldilməsi son illərin təcrübəsi ilə bir daha öz təsdiqini tapmaqdadır. Belə ki, əvvəlki dövrlərdə olduğu kimi, hesabat dövründə də korrupsiyaya qarşı mübarizə sahəsində Baş İdarənin əməkdaşları tərəfindən bir sıra qabaqlayıcı tədbirlər həyata keçirilib. On üç xüsusat üzrə inzibati pozuntu aşkar edildiyindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 54-cü, 192.1-ci və 198.0.1-ci maddələrinin tələblərinə əsasən, inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərar qəbul edilərək aidiyyəti üzrə müvafiq məhkəməyə göndərilib. Araşdırılması üçün aidiyyəti üzrə müvafiq qurumlara göndərilmiş müraciətlər üzrə aparılmış xidməti yoxlamalar nəticəsində isə vəzifəli şəxslərin hərəkətlərində aşkarlanan cinayət xarakterli olmayan hüquqpozmalar üzrə 10 vəzifəli şəxsə xəbərdarlıq, 8 vəzifəli şəxsə töhmət verilib. Həmçinin 2 vəzifəli şəxs şiddətli töhmət növündə intizam məsuliyyətinə cəlb olunub, 3 nəfər isə vəzifəsindən azad edilib. Habelə araşdırmalar nəticəsində yol verilmiş qanun pozuntularının aradan qaldırılması və gələcəkdə bir daha təkrar törədilməməsi üçün müxtəlif dövlət qurumları və vəzifəli şəxslərə 47 təqdimat göndərilib.

Həmçinin hesabat dövründə Baş İdarə tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı "Tikinti sahəsində qeyri-rəsmi əmək münasibətlərinin qarşısının alınması ilə bağlı nəzarətin gücləndirilməsinə dair tədbirlər haqqında" 2017-ci il 28 aprel tarixli Fərmana uyğun olaraq, bu sahədə vətəndaşların əmək hüquqlarının pozulmasına yönəlmiş qanunsuz hərəkətlərə qarşı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi ilə birgə ən ciddi mübarizə tədbirləri davam etdirilib. Mərkəzdən daxil olmuş 17 material əsasında aparılmış araşdırmalar zamanı bir sıra şirkətlərin rəhbərləri tərəfindən ayrı-ayrı şəxslərin Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi hüquqi qüvvəyə minmədən xidmətlərin yerinə yetirilməsinə cəlb olunmaları halları müəyyən edildiyindən 1 cinayət işi və 5 inzibati xəta haqqında iş üzrə icraat başlanması təmin edilib. Həmin şirkətlərin rəhbərlərinə "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 22-ci və 23-cü maddələrinə əsasən gələcəkdə hər hansı bir işlərin görülməsi zamanı işlərə cəlb edilmiş işçilərin hüquqlarının pozulması hallarına yol verilməməsi, əks təqdirdə barələrində daha ciddi məsuliyyət tədbirləri görüləcəyi barədə 13 rəsmi xəbərdarlıq elan edilib. Eləcə də bu növ qanun pozuntularını doğuran səbəb və şəraitin aradan qaldırılmasına dair müvafiq təşkilatlara 28 təqdimat verilib. Həyata keçirilən qabaqlayıcı tədbirlər nəticəsində əmək münasibətləri rəsmiləşdirilmədən tikinti şirkətlərində işə cəlb olunan 258 işçi ilə əmək müqavilələrinin bağlanması təmin edilib.

Mətbuat konfransında çıxış edən Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın katibi Kamal Cəfərov "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulan tədbirlərin dövlət orqanları tərəfindən 86 faiz icra edildiyini və Milli Fəaliyyət Planının Azərbaycanda və regionda ilk dəfə olaraq Elektron Monitorinq Sistemi (ems.gov.az) vasitəsilə qiymətləndirildiyini bildirib. O, korrupsiyaya qarşı həyata keçirilmiş mühüm qabaqlayıcı institusional tədbirlər çərçivəsində "ASAN xidmət" mərkəzlərinin sayının və fəaliyyət coğrafiyasının daha da genişləndirilməsinin əhəmiyyətini xüsusi vurğulayıb.

Tədbirdə iştirak edən qeyri-hökumət təşkilatlarının nümayəndələri çıxışlarında korrupsiyaya qarşı mübarizə sahəsində Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin 2018-ci ilin birinci yarımili ərzində gördüyü işləri müsbət dəyərləndiriblər.

Mətbuat konfransında, həmçinin bildirilib ki, korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın və mövcud qanunvericiliyin səmərəli tətbiqi üçün qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsinin zəruriliyi nəzərə alınaraq hesabat dövründə Baş İdarə tərəfindən bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlar və digər ölkələrin müvafiq hüquq mühafizə orqanları ilə əlaqələrin daha da genişlənməsinə xüsusi diqqət yetirilib. Ölkəmizin korrupsiyaya qarşı mübarizədə əldə etdiyi mühüm nailiyyətlər beynəlxalq qurumlar tərəfindən də yüksək qiymətləndirilib.

Beynəlxalq əməkdaşlıq sahəsində görülmüş işlərin məntiqi nəticəsi olaraq, Azərbaycanın İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) ilə İstanbul Fəaliyyət Planı çərçivəsində əməkdaşlığı ötən dövrdə də uğurla davam etdirilib. Bu il OECD-nin Şərqi Avropa və Mərkəzi Asiya üçün Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planı üzrə 19-ci monitorinq görüşündə Şəbəkənin IV Monitorinq Raundu üzrə ölkəmizə dair verilmiş tövsiyələrin böyük qismində icrası istiqamətində əsaslı nailiyyətin əldə olunması barədə yekdil fikrə gəlinib və dövri hesabat müsbət qiymətləndirilərək qəbul edilib.

Həmçinin ötən il OECD-nin Şərqi Avropa və Mərkəzi Asiya üçün Antikorrupsiya Şəbəkəsinin (ACN) Hüquq Mühafizə Orqanları Şəbəkəsinin Bakıda keçirilmiş 8-ci görüşü təşkilat tərəfindən iştirakçılar arasında qabaqcıl təcrübənin paylaşılmasına verdiyi töhfələrə görə nümunəvi əməkdaşlıq platforması kimi qiymətləndirilib.

Bundan başqa, respublikamızın dünya prokurorlarını bir qurumda birləşdirən ilk və yeganə təşkilat olan Beynəlxalq Prokurorlar Assosiasiyasının işində fəal iştirakı, təşəbbüskarlığı və səmərəli təmsilçiliyi nəzərə alınaraq, Assosiasiyanın İcraiyyə Komitəsinin 45-ci iclası bu il aprelin 9-10-da Bakıda keçirilib. Təşkilata üzv ölkələrin prokurorluq orqanlarının yüksək səviyyəli şəxslərinin iştirak etdikləri tədbirdə assosiasiyanın rəsmi internet səhifəsinin antikorrupsiya saytının fəaliyyətinin Azərbaycan Prokurorluğu tərəfindən hazırlanması xüsusi qiymətləndirilib.

Diqqətə çatdırılıb ki, ötən yarım il ərzində Baş İdarə tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla yanaşı, bu sahədə qabaqcıl və müsbət təcrübəyə malik olan ölkələrin ixtisaslaşmış antikorrupsiya qurumları ilə də ikitərəfli səmərəli əməkdaşlıq əlaqələrinin qurulması istiqamətində zəruri tədbirlər görülüb. Belə ki, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisinin başçılıq etdiyi nümayəndə heyəti İqtisadi Əməkdaşlıq Təşkilatı ilə əməkdaşlıq çərçivəsində Tehrana etdiyi səfər zamanı Baş İdarə ilə İranın Baş Təftiş Təşkilatı arasında korrupsiyaya qarşı mübarizə və onun qarşısının alınması sahəsində Anlaşma Memorandumu imzalanıb.

Mətbuat konfransında cari il iyulun 8-də Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlət başçısının ölkəmizdə həyata keçirilən quruculuq işlərinə, iqtisadi, sosial və siyasi sahədə aparılan islahatlara kölgə salan, habelə əhalinin haqlı narazılığına səbəb olan rüşvətxorluq və korrupsiya kimi neqativ təzahürlərə qarşı daha ciddi mübarizə aparılması ilə bağlı göstərişlərinə uyğun olaraq, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin bundan sonra da korrupsiya hüquqpozmalarını doğuran səbəb və şəraitin müəyyən edilməsi və cinayətlərin qarşısının alınması istiqamətində sistemli, ardıcıl və qətiyyətli mübarizə tədbirlərini davam etdirəcəyi xüsusi vurğulanıb.

Sonda QHT-lərin və KİV nümayəndələrinin sualları ətraflı cavablandırılıb.

# Kənd turizminin inkişafına diqqət artır





*Əvvəli 1-ci səh.*

Xəstələr rahatlığı olan və hər cür şərait yaradılmış xüsusi otaqlarda bu sudan istifadə etməyə başlayıblar. Bunlar isə öz növbəsində rayona elmi ekoturların təşkilini zəruri edir. Hesab edilir ki, təbiətin bu möcüzəsinin, müalicəvi suyun elmi cəhətdən tədqiqinə böyük ehtiyac var.

Qax tarixi məkanları ilə də seçilir. Məlumdur ki, turistlərin başlıca maraq dairələrindən biri olduğu olkənin tarixi, məişəti, adət-ənənələri və gəzməli, görməli yerləridir. Bu mənada Qax şanslı sayıla bilər. Rayondakı abidələr tarixilik baxımından ziyarətçilərin marağına səbəb olur. Bunlardan ikisi dünya, 18-i ölkə, 48-i isə yerli əhəmiyyətli olmaqla, 48 memarlıq, 18 arxeoloji, 2 monumental-xatirə abidələri var. Rayonda turistlərin tarixi abidələrə səyahətini təşkil etmək üçün 6 marşrut müəyyənləşdirilib.

Rayonda gedən geniş quruculuq və abadlıq işləri, gəzməli, görməli yerlərin sayının çoxalması turistlərin Qaxa marağını daha da artırıb. Şəhərin mərkəzində yerləşən "Qala qapısı və qala divarları" memarlıq abidəsində aparılan restavrasiya işləri, "İçəri bazar" Turizm Mədəniyyət Mərkəzi buna ən parlaq misaldır. Turizm Mədəniyyət Mərkəzinə gələn hər bir turist rayonun keçmişi, əhalinin yaşam tərzi, adət-ənənələri, məişəti, kulinariyası haqqında müfəssəl məlumat almaq imkanına malikdir.

Açıldığı zamandan başlayaraq mədəniyyət mərkəzində turistlərin, o cümlədən yerli sakinlərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə onlarla mədəni-kütləvi tədbir keçirilib.

Qax rayonu özünəməxsus mətbəxi ilə də turistləri cəlb edir. Ətin qaxac edilməsi (qurudulması) və qaxacdan "sülhüllü"nün bişirilməsi, toyuqlu xəngəl, lobyalı, qozlu aş turistlər tərəfindən sevilən yeməklərdəndir. Bundan əlavə, qoz və fındıqdan hazırlanmış xüsusi şirniyyatlar, müxtəlif meyvə mürəbbələri ən çox istifadə edilən ləzizlərdir.

Rayonda yaşıl kənd, müalicə və istirahət turizmi daha geniş yayılıb. Yuxarıda qeyd etdiyimiz təbii resurslar və lazım olan xammal mənbələrinin mövcudluğu rayonda ekoturizmin inkişafına zəmin yaradır. İlisu Dövlət Təbiət Qoruğunun və onun nəzdində Qax Dövlət Yasaqlığının olması bu sahənin inkişafı üçün böyük imkanlar açır. Turistlər yaşıl kənd turizminə üstünlük verirlər. Onlar kənd evlərində qalmağı çox sevirlər. Yerli əhali ilə ünsiyyət yaradaraq bölgənin adət-ənənələri, yaşam tərzi ilə yaxından tanış olurlar. Sadə kənd evlərində istirahət etmək istəyənlərin sayı ildən-ilə artır. Bu da rayonda yüzlərlə ailənin rifahının yaxşılaşmasına təsir göstərir. Rayonun İlisu, Ağçay, Qaşqaçay, Çinarlı, Qum, Ləkit, Qaxbaş kəndlərində onlarca ailə bu turizm növündən yararlanır. Norveçli turistlər artıq iki ildir ki, Ləkit əhalisi ilə təmasdadırlar.

Kənd evlərində istirahət edən turistlərin istirahətinin səmərəli təşkili də nəzərdən yayınmır. Bu məqsədlə ev sahibləri ilə görüşlər keçirilib, onlarla maarifləndirmə işləri aparılıb, xidmət səviyyəsinin yüksəldilməsi istiqamətində təlimatlar verilib və onlara vəzifələri izah edilib. Ev sahiblərinin diqqətinə çatdırılıb ki, məqsəd heç də yalnız gəlir əldə etmək deyil. Bölgə və onun turizm imkanları haqqında turistləri məlumatlandırmaq, lazımi səviyyədə xidmət göstərərək onların diqqətini daha çox regiona cəlb etmək və turistlərə bələdçilik etməyi bacarmaqdır. Bölgənin tarixi, məişəti, mədəniyyəti, sənətkarlığı, kulinariyası barədə turistləri məlumatlandırmaq, onların maraq dairələrinə uyğun istirahətlərini təşkil etmək başlıca vəzifədir. Kənd turizmi həm də ictimai diplomatiyadır. Bu diplomatiyanın qanunauyğun və məqsədyönlü həyata keçirilməsi intellekt və bacarıq tələb edir. Ona görə də kənd turizmi ilə məşğul olan hər bir vətəndaş, həm də turistlərə bələdçilik etməyi bacarmalıdır.

Elmin, texnikanın inkişaf etdiyi, informasiya cəmiyyətinin qurulduğu indiki zamanda turizm sənayesinin inkişafında, təbliğində onların, xüsusilə də internetin rolu danılmazdır. Rayonun elə turizm obyekti yoxdur ki, internet xidməti olmasın. Turistlər çox rahat şəkildə bu xidmətdən yararlanırlar. İstirahət zonalarında yerləşən hər bir kənd sürətli internet xətti ilə təchiz edilib. Bu da kənd turizminin inkişafına kömək göstərən amillərdəndir.

Turizm obyektlərində insanların istirahətlərinin mənalı keçməsinin təşkili məqsədilə ekskursiyalarla yanaşı, konsert proqramları da təşkil edilir. Mövsüm ərzində "Arzu" xalq kollektivi, "Çeşmə" instrumental ansamblı və İ.Dağıstanlı adına Xalq Teatrının kollektivinin turistlər qarşısındakı çıxışları maraqla qarşılanır.

Yay turizm mövsümü davam edir. Qax rayonu bu il də qonaq-qaralıdır.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Səudiyyə Ərəbistanı ilə ədliyyə sahəsində əməkdaşlıq genişlənir

Azərbaycan tərəfindən İslam və ərəb dünyası ilə əlaqələrə xüsusi əhəmiyyət verilərək, Səudiyyə Ərəbistanı Krallığı ilə hüquqi sahədə əməkdaşlıq genişləndirilir. İki ölkənin Ədliyyə nazirlikləri tərəfindən əlaqələrin gücləndirilməsi məqsədilə əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması qərara alınıb.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bununla əlaqədar hazırlanmış memorandumun layihəsinin müzakirəsi və razılaşdırılması üçün Səudiyyə Ərəbistanı Krallığı ədliyyə nazirinin müavini Şeyx Dr. Əbdüləziz bin Abdullah Əl-Nasirin başçılıq etdiyi nümayəndə heyəti iyulun 23-25-də Azərbaycanda səfərdə olub.

Səfər zamanı Ədliyyə Nazirliyində memorandumun layihəsi üzərində məhsuldar müzakirələr keçirilib. Ədliyyə nazirinin müavini Azər Cəfərov ilə ədliyyə və məhkəmə sistemində islahatlara, bu sahədə əməkdaşlığın prioritetlərinə və qarşılıqlı maraq doğuran məsələlərə dair faydalı fikir mübadiləsi aparılıb. Sənəd təkmilləşdirilərək paraflanıb və müvafiq razılaşma protokolu imzalanıb.

Ədliyyə naziri Fikrət Məmmədov Səudiyyə Ərəbistanı Krallığının nümayəndə heyəti ilə görüşüb.

Dövlətlərimiz və xalqlarımız arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafını vurğulayan nazir ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin Səudiyyə Ərəbistanına səfərlərinin bu əlaqələrin inkişafına mühüm təkan verdiyini, hüquqi sahədə əlaqələrin möhkəmləndirilməsi üçün geniş imkanların olduğunu bildirib, sənədin tezliklə imzalanacağına əminliyini ifadə edib.

Ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini, siyasi əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayan qonaq respublikamızın hərtərəfli inkişafını təqdir edib, hüquqi əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu, Anlaşma Memorandumunun imzalanmasının qarşılıqlı fəaliyyətin dərinləşməsinə xidmət edəcəyini bildirib.

Nazir müavini Şeyx Dr. Əbdüləziz bin Abdullah Əl-Nasir ədliyyə və məhkəmə sahəsindəki islahatları təqdir edərək nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin və təcrübə mübadiləsinin aparılmasının hər iki tərəf üçün faydasını vurğulayıb, Səudiyyə Ərəbistanı Krallığının ədliyyə nazirinin salamlarını çatdırıb.

Görüşdə, həmçinin dövlətlərimizin beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlığı qeyd edilib, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin acı nəticələri diqqətə çatdırılaraq bu münaqişənin həllində Səudiyyə Ərəbistanının ölkəmizin haqlı mövqeyini hər zaman dəstəklədiyi vurğulanıb.

Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olublar. Nümayəndə heyətinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Xocalı soyqırımı ilə bağlı materialları əks etdirən əyani vəsaitlər və disklər təqdim edilib.

Səfər çərçivəsində Səudiyyə Ərəbistanı Krallığının nümayəndə heyəti Ali Məhkəmənin və Yasamal Rayon Məhkəməsinin müasir binaları, elektron məhkəmə sistemi, Azərbaycan brendi olan və ədliyyənin də müvafiq xidmətlər göstərdiyi "ASAN xidmət"in fəaliyyəti, habelə Bakının müasir rəmzlərindən sayılan möhtəşəm Heydər Əliyev Mərkəzi ilə tanış olublar.

# "The Daily Caller" qəzeti "Ermənistan" fondunun qanunsuz əməlləri və Azərbaycan ərazilərinin ermənilər tərəfindən işğalı barədə yazır

Amerikada çıxan "The Daily Caller" qəzetində Yaxın Şərqin, Avrasiyanın və Türkiyənin geosiyasəti və geostrategiyası üzrə fransız eksperti Maksim Qauinin "Antikorrupsiya həbsləri yalnız başlanğıcdır, lakin Ermənistan həqiqətən "öz bataqlığını" quruda biləcəkmi?" sərlövhəli məqaləsi dərc edilib. Materialda "Ermənistan" fondunun qanunsuz hərəkətlərindən, Sarkisyan rejiminin və onun ailəsinin korrupsiyaya qurşanmasından və Ermənistanın Azərbaycana qarşı təcavüzündən bəhs edilir.

Müəllif yazır ki, ABŞ-dakı erməni diasporunun "maliyyə vəsaitləri toplayan maşını" ciddi bir problemlə - genişmiqyaslı korrupsiya ilə üzləşib. Bildirilir ki, iyulun 3-də Ermənistan Milli Təhlükəsizlik Xidməti Ümumdünya "Hayastan" fondunun ("Ermənistan" fondu) icraçı direktoru Ara Vardanyanı həbs edib. O, vəsaitlərin israfçılığında və onlardan təyinatı üzrə istifadə edilməməsində ittiham olunur. Ermənistan hakimiyyət orqanlarının verdiyi məlumata görə, Vardanyan "Ermənistan" fondunun kredit kartından onlayn azart oyunlar üçün istifadə etməsini boynuna alıb. O, etiraf edib ki, fonda ianə edilmiş vəsaitlərdən kredit kartının hesabını doldurmaq və özünün dələduzluq fəaliyyətini ört-basdır etmək məqsədilə ödənişlər etmək üçün istifadə edib. Ermənistan Milli Təhlükəsizlik Xidmətinin yaydığı məlumata görə, Vardanyan 2016-2018-ci illərdə 270.000 ABŞ dollarını mənimsəyib.

Qauin yazır ki, bir həftə bundan əvvəl Yerevan polisi Ermənistanın sabiq prezidenti Serj Sarkisyanın qardaşı Aleksandr Sarkisyanı qanunsuz silah saxlamaqda şübhəli şəxs kimi həbs edib. Onun həbs edilməsindən əvvəl, bu il may ayında Federal Təhqiqat Bürosu tərəfindən eks-prezidentin qardaşları Aleksandr və Levon Sarkisyana qarşı "bəyan edilməli mülkiyyəti olmasının gizlədilməsi" və "qeyri-qanuni varlanma" ittihamları üzrə cinayət işi açılıb. Müəllif vurğulayır ki, Sarkisyan qardaşları Birləşmiş Ştatlarda daşınmaz əmlak almaq üçün milyonlarla dollar xərcləyib və Ermənistanın siyasi maraqları üçün xaricdə vəsait toplayan şirkətlərdə mühüm rol oynayıblar. Aleksandr erməni mafiyasının aparıcı bossu, Levon isə Ermənistan XİN-də köhnə səfirdir. Bu yaxınlarda həyata keçirilmiş həbslər vəsait toplanması və lobbiçilik üzrə erməni-Amerika mexanizminin daxilində korrupsiyanın dərin kök salmasını nümayiş etdirir. Məqalədə daha sonra deyilir ki, bu mexanizm "özlərini guya erməni xalqını dəstəkləməyə çalışan xeyirxah aktorlar kimi göstərən" qruplardan ibarətdir.

1992-ci ildə Ermənistan prezidentinin fərmanı ilə təsis edilmiş "Ermənistan" fondu "ölkənin çətinliklərini aradan qaldırmaq, Ermənistanda və Arsaxda (yəni Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağ regionunda) davamlı inkişafa kömək etmək məqsədilə Ermənistandakı və xaricdəki erməniləri birləşdirmək üçün" nəzərdə tutulur. Əslində "Ermənistan" fondu özünü yalandan "humanitar" təşkilat kimi qələmə verən, həqiqətdə isə yalnız siyasi lobbi cəbhəsi olan bir kontordur. Qauin qeyd edir ki, ABŞ tərəfindən Ermənistana və işğal edilmiş Dağlıq Qarabağdakı qanunsuz rejimə maliyyə yardımının artırılması üçün uzun müddətdir ki, Konqresdə kampaniyalar keçirən iki iri lobbist qrup - Amerika Erməni Assambleyası və Amerika Erməni Milli Komitəsi "Ermənistan" fondunun affilə edilmiş təşkilatlarıdır.

Bu təşkilatlar Dağlıq Qarabağı müstəqil ölkə kimi tanımayan və Dağlıq Qarabağın gələcək statusunu "tərəflər arasında danışıqlara aid məsələ" hesab edən Dövlət Departamentinin siyasətini təhrif etməyə çalışırlar. Onlar Ermənistanın iqtisadi problemlərini, o cümlədən yoxsulluğun yüksək səviyyəsini, kənd təsərrüfatından ifrat asılılığı, sürətli inflyasiyanı daha da kəskinləşdirir, erməni xalqı üçün son dərəcə zəruri olan yardım üçün nəzərdə tutulan Amerika ianələrini Dağlıq Qarabağdakı qanunsuz rejimin maliyyələşdirilməsinə yönəldirlər. Qəribə də olsa, Konqresin bəzi üzvləri, o cümlədən senator Bob Menendes, konqresmen Bred Şerman, konqresin üzvü Ceki Spiyer, Frenk Pallone və digər şübhəli qanunvericilər bu qondarma "xeyriyyə təşkilatları"nı dəstəkləyirlər. Bu da öz növbəsində, onların özünün korrupsiyaya qurşanması barədə sual doğurur.

Ekspert öz məqaləsinin sonunda yazır ki, Ermənistan və onun yeni peyda olmuş lideri Paşinyan Vardanyanın, Aleksandr və Levon Sarkisyanın, həmçinin korrupsiyaya qurşanmış bütün başqa fərdlərin fəaliyyətindən ibrət dərsi almalıdırlar. Artıq Paşinyanın "Ermənistan" fonduna, Amerika Erməni Milli Komitəsinə və həm erməni, həm də Amerika xalqını aldadan digər cəbhəçi qruplara qarşı doğru mövqe seçərək həm Ermənistan daxilində, həm də beynəlxalq səviyyədə öz ölkəsi üçün yeni tarix yazmasının vaxtı çatıb.

***AZƏRTAC***

Deməsək olmur

# Zaman dəyişsə də biz dəyişməmişik

Allah rəhmət etsin klassiklərimizə - XIX əsrin sonu, XX əsrin əvvəlindəki dühalarımızı nəzərdə tuturuq. Yazdıqlarının üstündən əsrdən artıq zaman keçsə də, bu gün də aktualdır, həmişə və heç vaxt olmadığı kimi, hətta o qədər ki, adam bilmir yaxşı və pis mənada nəyə heyrətlənsin - klassiklərimizin dahiliyinəmi, yoxsa özümüzün uzaq keçmişdə ilişib qalmağımızamı...



Güman ki, dühalarımız yazdıqlarının bu qədər uzunömürlü olacağını təsəvvürlərinə belə, gətirməzdilər, əks halda, xalqı ayıltmaq və maarifləndirmək kimi gərəkli işə əl qoymaz, "xeyri yoxdur" deyib zəmanələrinin digər qələm sahiblərinin ənənəvi yolu ilə gedərək olan təbiəti və olmayan məhəbbəti tərənnüm edərdilər.

Amma bunu etmədilər və böyük ümidlə mənsub olduqları xalqın "imzasını millətlərin imzası sırasında görmək" üçün bədii mücadiləyə qərar verdilər və bununla həm də Azərbaycanın ədəbiyyat tarixində yeni məktəbin, yeni cərəyanın əsasını qoydular. O məktəb və cərəyanın ki, bu gün də ona çox ciddi ehtiyac var, hətta klassiklərimiz kimi nadir istedad sahiblərimiz olmasa belə... Çünki zaman dəyişsə də, biz dəyişməmişik, necə olmuşuqsa, elə də qalmışıq - klassiklərimizin personajları səviyyəsində... Əks halda, söz dahilərimizin əsərlərinin başdan-ayağacan bu günlə səsləşməsini, sanki bizim dövr üçün yazıldığını hamı etiraf etməzdi ki...

Çünki biz yenə də oxumuruq, öyrənmirik. Çox böyük əksəriyyətimizin oxumaqla, öyrənməklə arasına sanki qurd yağı sürtülüb, kitab, elm adı gələndə diksinirik. Hətta öz aramızda çoxdan gəzib-dolaşan özünütənqid nümunəsi də yaratmışıq - biz yeganə xalqıq ki, oxumaq yox, oxumamaq üçün pul veririk. Pul veririk ki, özümüz, yaxud övladımız savad deyil, diplom alsın. Bax, budur Sabirin 100 il əvvəlki "Oxutmuram, əl çəkin" deyən "qəhrəman"ından yeganə fərqimiz.

Amma yox, bir fərqimiz də var və o da bu gün oxumaq deyəndə ağıllarına kitab-dəftər əvəzinə, mikrofon və toy-düyünə gələnlərin sayının həddən artıq çox olmasıdır. Bəli, indi az qala hamı oxuyur (yaxud oxumaq istəyir), bacaran da, bacarmayan da, istedadı olan da, olmayan da, elə bil ölkəyə, cəmiyyətə gərəkli olan "oxumaq"ların yeri səhv düşüb, sanki bu xalq gələcəyini elm oxumaqla deyil, mahnı oxumaqla qurmaq istəyir.

"Sağ olsun" telekanallarımız da, belələrinə gen-bol efir vaxtı verirlər. Sanki yarışa giriblər ki, görək kim bu xalqı savaddan, intellektdən daha çox uzaqlaşdırıb zövqsüz və bayağı, özlərinin dərk edib adlandırdıqları "sənət"ə yuvarlada biləcək. Təəssüf ki, məqsədlərinə nail olublar - bu gün gənclərimiz və yeniyetmələrimiz arasında gələcək karyeralarını toyxanalarda axtaranların sayı bunun üçün kitabxanalara üz tutanlardan dəfələrlə çoxdur. Nəticəsi göz önündədir - hər il universitetləri bitirən on minlərin içərisindən bəzən müasir tələblərə cavab verən on gənc mütəxəssis tapmaq çətin olur.

Lakin əvəzində az qala hər gün on "ulduz parlayır". Hamısının da sahibi, yəni, sponsoru. Gəl ki, elə bu vaxt perspektivli bir gəncin xaricdə demirik, daxildə təhsil almağı üçün pullu bir adam tapmaq, çinlilər demiş, qaranlıq otaqda olmayan qara pişiyi axtarmaq qədər mənasız işə çevrilir. Bu yerdə isə klassiklərimizlə birgə mesenatlarımıza da rəhmət diləməkdən savayı əlimizdən bir iş gəlmir. Bircə o iş gəlir, təəssüflə qeyd edək ki, indi onlardan yoxdur!

Olsaydı, yəqin ki, bugünkü cahillikləri görüb ən azından dinc durmazdılar. Necə durardılar ki, bir vaxtlar həyatlarını riskə atıb pulları və istedadları hesabına əleyhinə mübarizə apardıqları cahillik bu gün ölkə boyu az qala bir çoxunun həyat tərzinə çevrilir. Savadsızlıq (baxmayaraq ki, böyük problemdir və özümüz üçün bəla saydığımız nə varsa, hamısının başı ona bağlıdır) bir yana, digər "keyfiyyət"lərimizə nə deyirsiniz?!

Hər dəfə paytaxtın mərkəzindəki "Azad qadın" abidəsinin yanından keçəndə adamın qanı qaralır. Ona görə yox ki, həm də möhtəşəm sənət əsəri olan "daşlaşmış" bu Azərbaycan xanımını sovet ideologiyasının qurbanı hesab edirik. Əsla yox və tam əksinə! Əvəzsiz dühamız - Cəfər Cabbarlının "Sevil"inin mərmərdən yonulmuş bu prototipinin ideoloji yükünün yenidən aktual olması qaraldır adamın qanını.

Bu nədir? Bəşəriyyət irəli getdiyi halda, biz niyə geri qayıdırıq? Məgər dini inancın insanın geyim-keciminə bu qədərmi dəxli var?! Axı, insanın daxili kimliyi ilə zahiri görünüşü arasında əlaqə axtarmağın çoxdan ciddi məşğuliyyət kimi qəbul edilməməsini kim bilmir ki... Üstəlik, dinimiz də formaca yox, məzmunca Allah bəndəsi, Tanrı övladı olmağı tövsiyə etmirmi?!

Qəribədir, qonşu ölkədə qadınlar çarşabdan, çadradan, hicabdan qurtulmaq üçün mübarizəyə qalxıblar, bizimkilər isə yenidən bu ağ dünyaya qara pərdə arxasından baxmağa başlayıblar. İrad tutanda, münasibət bildirəndə etiraz edirlər, bəzi hallarda isə bu irad və münasibəti hətta siyasiləşdirirlər də. Halbuki, bütün sivil dünyada inanclıq, dindarlıq şəxsi mənəviyyat kimi qəbul olunur və onun bütün formalarda və məzmunda cəmiyyətə daşınması müxtəlif üsullarla qadağan edilir.

Bunu dini azadlığa basqı kimi təqdim etmək istəyənlərə sual edirik: məgər islama görə dini, milli və irqindən asılı olmayaraq bütün insanlar Allah qarşısında eyni deyillərmi?! Təbii ki, eynidirlər və deməli, cəmiyyətdə hansı dinə mənsub olduğunu zahirən nümayiş etdirməyə ehtiyac yoxdur. Hətta deyərdik ki, bunu dinimizin, yəni, Allahın buyuruğunun əleyhinə çıxmaq kimi də qəbul etmək olar. Çünki Allah öz bəndəsinə yaxşı əməllə fərqlənməyi buyurur.

Elə isə dövləti niyə qınayırıq? Azərbaycanda dövlətlə din rəsmi olaraq ayrıdırsa, dövlətin bu işdə tutduğu mövqe də tam qanun və ədalət çərçivəsindədir. Başqa sözlə desək, məscidlərdə, ziyarətgahlarda, digər müqəddəs yerlərdə inanclı insanların davranış qaydaları dinin tələblərinə uyğun müəyyən edildiyi kimi, təyinatından asılı olmayaraq bütün dövlət müəssisələrində də həmin qaydalar dünyəvilik prinsipinə əsaslandırılıb. Əks halda, işə, qulluğa, yaxud dərsə biri hicablı, biri boynu xaçlı, biri başı təsəkli, biri də əlində budda gələrdi.

Bunun nə demək olduğunu, daha doğrusu, fəsadlarını təsəvvür edirsinizmi? Kim etmirsə, bu onun niyyətindən, özü də ziyanlı niyyətindən xəbər verir. Və nəhayət, elə bu ziyanlı niyyətin nəticəsidir ki, klassiklərimizin qadın azadlığı uğrunda apardıqları söz, ideologiya mübarizəsinə, eləcə də məlum heykəlin təbliğat yükünə indi yenidən ehtiyac yaranıb.

Və təəssüf ki, ehtiyacımız təkcə buna da deyil. Meyarlar dəyişir, dəyərlər itir, ənənələr unudulur, məslək istehza ilə qarşılanır. Getdikcə kimin kim olduğunu bilmək daha da çətinləşir, "yarməmmədlər, lal hüseynlər, salmanlar" az qala hər yerdə masa başına keçərək "Rüstəm kişi"lərin sadəlövhlükləri üzündən səlahiyyət sahiblərinə çevrilir, "çoban kərəmlər" isə "zəmanə adamı" olmadıqları üçün kənarda qalırlar. Ən dəhşətlisi isə quyruğu tapdalanan kimi siyasi əqidəsini dəyişib qarşı səngərə keçməyin az qala "milli mentalitet" səviyyəsinə qalxmasıdır. Belələrinin sayı az deyil və onlar bütün "cəbhə"lərdə fəaldırlar... təbii ki, xalq, dövlət, ölkə yox, şəxsi mənafeləri üçün. Buna baxmayaraq, onlar da Mirzə İbrahimovun xatırlatdığımız personajları kimi özlərini gözə soxmağı bacardıqları üçün cəmiyyətdə əksər vaxt üzdə və layiq olmadıqları mövqeyə malik olurlar, hətta başqalarına stimul yarada biləcək səviyyədə... Bu isə çox qorxulu və arzuedilməz stimuldur.

Amma nə edək ki, üzqaraldan digər təhlükəli mərəzlərimiz də yox deyil. İctimai yerlərdə bir çoxlarının özlərini aparmağına fikir vermisinizmi? Verməmisinizsə, yolunuzu istədiyiniz vaxt parklardan, xiyabanlardan, bir sıra metro stansiyalarının ətrafından salın, keçdiyiniz küçələrdə, prospektlərdə başınızı qaldırıb yan-yörənizə, bəzi gənclərin özlərini aparmalarına nəzər salın, ümumiyyətlə, kənardan sadəcə, insanları izləyin. Nə görəcəyinizi əvvəlcədən deyə bilərik: park və xiyabanlarda təmizlənməsə dizə çıxan zibil, bəzi metro stansiyalarının ətrafında dolanışıqlarını sərnişin daşımaları ilə çıxaran sürücülərin hər cür ədəbdən uzaq davranışları və yollarda hərəkəti iflic edən avtomobilləri, küçələrdə üzr istəyirik, tüpürə-tüpürə, günəbaxan tumu çırtlaya-çırtlaya vaxt öldürən, nə və hansı tonda danışmalarının fərqinə varmayan cavan və yeniyetmələr görə biləcəklərinizin az bir qismidir.

Təbii ki, bu az qisim nəticə kimi bizim davranış və sanitar mədəniyyətimizin heç də yetərincə olmaması səbəbindən irəli gəlir və deməli, bu sarıdan da üstündən bir əsr keçməsinə baxmayaraq, klassiklərimizin yaratdıqları personajlardan fərqlənmirik.

Yaxşı, belədirsə, bizə nə olub, nəyə görə zamanla ayaqlaşmaqdansa ayaqlarımıza daş bağlamışıq, ətrafımızdakıları görmək əvəzinə, gözlərimizi qapatmışıq, dövrün çağırışlarını eşitmək yerinə qulaqlarımızı tıxamışıq?! Yenəmi "Dindirir əsr bizi, dinməyiriz"?! Axı, indi 21-ci yüzillikdir. Şükürlər olsun, nəyimiz yoxdur - müstəqil dövlətimiz, müasir ölkəmiz, saysız-hesabsız təhsil müəssisələrimiz, mədəniyyət ocaqlarımız və bir də üzümüzə açıq olan dünya.

Bəs, onda nə çatmır ki, sadaladığımız və neçə-neçə üstündən keçdiyimiz çatışmazlıqlardan yaxa qurtara bilmirik? Bu sualın cavabı kimi savadsızlıqdan başqa köklü səbəb gəlmir ağlımıza.

Həqiqətən, tək bizim yox, digər xalqların da başına nə gəlirsə, hamısı savadsızlıq üzündəndir. Bu gün müsəlman ölkələrinin qarşılaşdıqları bəlaların da kökü savadsızlığa gedib çıxır. Əhalisi savadlı ölkəni bütün güclər yığışsalar belə, ram edib istədiyi hala sala bilməzlər. Çünki savadlı xalq hüququnu və haqqını müdafiə etmək qüdrətindədir və belə xalqı əymək, sındırmaq asan olmur. Məhz buna görədir ki, bütün zamanlarda böyük imperiyalar ərazilərindəki xalqların savadsız olmaları üçün əllərindən gələni etmişlər. Acısını həmin xalqlar indi də çəkirlər, biz də həmçinin. Hətta 70 illik keçmiş SSRİ-nin öz dövrü üçün nümunəvi olan təhsil sistemi də bizi 200 illik əsarətin savadsızlığından, göründüyü kimi, hələlik tam qurtara bilməyib.

Amma artıq 27 ildir ki, ölkəmizin və özümüzün sahibiyik. Bu illər çox sahələrdə uğurlar qazanmışıq və hamısının da müəllifi özümüzük. Deməli, buna imkanımız, bacarığımız və hətta savadımız çatır. Qaldı qeyd etdiyimiz nöqsanlarımıza, o da öz əlimizdədir, qısa zamanda bu qədər və bu sürətlə irəli gedən bizlər üçün onlar elə də aşılmaz sədd deyil. Sadəcə, ara-sıra klassiklərimizi oxumaq lazımdır ki, onları görək və dəf edək.

***Raqif MƏMMƏDOV, "Azərbaycan"***

# Ermənistan beynəlxalq hüquq və normaları pozmaqda davam edir

Qarabağın vaxtilə ən inkişaf etmiş rayonlarından olan Ağdamın Ermənistan tərəfindən işağalından 25 il ötdü. Bu müddət ərzində Ermənistan beynəlxalq aləmdə təcavüzkar və işğalçı kimi tanındı. Lakin, təəssüf doğuran hal odur ki, bu işğalçı rejim heç bir beynəlxalq normalara əməl etmir, əksinə, regionda təhlükəsizliyin təmin olunmasına əngəl törətməkdən əl çəkmir. Təcavüzkarın işğalçılıq siyasətinin nəinki münaqişə tərəflərinin, əslində, regionun təhlükəsizliyini təhqid etməsi ötən müddət ərzində bütün beynəlxalq təşkilatların qərarlarında, xüsusən BMT TŞ-nin qəbul etdiyi 4 qətnamədə öz əksini tapıb.

İyulun 20-də Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan ölkələrin Daxili İşlər Nazirləri Şurasının Bakı iclasının iştirakçılarını qəbul edən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva qeyd etdi ki, sabitlik, ictimai asayiş, qanunun aliliyi dövlətlərin inkişafının əsas şərtlərindən biridir. Şuranın işinə böyük əhəmiyyət verildiyini vurğulayan Birinci vitse-prezident regionun təhlükəsizliyinin təmin olunmasına Azərbaycanın töhfə verdiyini vurğulamaqla yanaşı, Ermənistanın təcavüzkar siyasətinə də diqqət ayırdı: "Sizin diqqətinizi Azərbaycanın Dağlıq Qarabağ bölgəsində bir sıra xarici şirkətlərin qanunsuz iqtisadi fəaliyyəti faktlarına yönəltmək istərdim. Hazırda Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz iqtisadi fəaliyyət həyata keçirən 177 xarici hüquqi şəxs aşkar edilib. Bununla yanaşı, 710 xarici vətəndaş işğal olunmuş ərazilərə gəlib. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, ölkəmizin ərazi bütövlüyünü bütün dünya tanıyıb. Buna görə də bu cür pozuntular, bu cür hərəkətlər Azərbaycan qanunvericiliyinin kobud şəkildə pozulması deməkdir. Bununla yanaşı, son illərdə bu ərazilərdən narkotiklərin becərilməsi və sonradan trafiki üçün istifadə olunması faktları mövcuddur. Bu da sözsüz ki, böyük narahatlıq doğurur. İstər xarici şirkətlər tərəfindən, istərsə də ayrı-ayrı şəxslər tərəfindən bu cür hərəkətlər Azərbaycan qanunvericiliyinin kobud şəkildə pozulmasıdır və bizim dövlətimiz həmin hərəkətlərin dayandırılması və qarşısının alınması üçün bütün qanuni tədbirləri görür və gələcəkdə də görəcək. Əlbəttə, bu cəhətdən biz İnterpolun dəstəyinə çox bel bağlayırıq".

Xatırladaq ki, Xarici İşlər Nazirliyi tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi və digər əməllər haqqında hesabat və "Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi və digər fəaliyyətlərlə bağlı üçüncü tərəflərin məsuliyyətinə dair hüquqi rəy" kimi fundamental sənədlər də hazırlanıb. XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev iyulun 23-də keçirdiyi mətbuat konfransında bu məsələ ilə bağlı fikrini açıqlayarkən qeyd edib ki, Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi və digər fəaliyyətləri müxtəlif istiqamətlər üzrədir: işğal olunmuş ərazilərdə məskunlaşma; Azərbaycanın təbii sərvətlərinin istismarı və ticarəti; iqtisadi və maliyyə fəaliyyətləri; infrastruktur dəyişiklikləri və telekommunikasiya şəbəkəsinin istismarı; həmin ərazilərin mədəni xarakteri və irsinin dəyişdirilməsi; zəbt edilmiş təbiətin turizm məkanı kimi təşviqi, qeyri-qanuni səfərlərin təşkili və sair.

Dəfələrlə beynəlxalq səviyyədə bildirildiyi kimi, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni əməllərin həyata keçirilməsinə məsuliyyət daşıyan tərəfdir. İşğal olunmuş ərazilərdə etnik təmizləmənin aparılması, məskunlaşma məntəqələrinin yaradılması və əhalinin köçürülməsi ilə orada demoqrafik tərkibinin dəyişdirilməsi "Quruda müharibənin aparılması qanunları və adətləri" haqqında 1907-ci il Haaqa Konvensiyası ilə bağlı Qaydaların 43-cü bəndinin, 1949-cu il "Müharibə zamanı mülki şəxslərin müdafiəsi"nə dair Cenevrə Konvensiyasının 49-cu maddəsinin kobud şəkildə pozulmasıdır. Bu isə beynəlxalq hüquqa ziddir və yolverilməzdir.

Beynəlxalq hüququn imperativ normalarının sadalanan ciddi pozuntusu ağırlaşdırılmış məsuliyyətlə nəticələnən xüsusi halların tətbiq edilməsini nəzərdə tutur. Belə pozuntular nəticəsində yaranmış vəziyyətin tanınmaması, müəyyən yardımın göstərilməsinin qadağan olunması, həmin pozuntuları etmiş şəxslərin hər hansı immunitetdən məhrum edilməsi, ağırlaşdırılmış məsuliyyət kimi bütün dövlətlər tərəfindən Ermənistanın məsuliyyətə cəlbi və ona qarşı tədbirlərin görülməsi, o cümlədən sanksiyaların tətbiqi, cinayət və mülki işlərin açılması və s. kimi məsələlər həllini tapmalıdır.

Beynəlxalq münasibətlərdə və münaqişələrin həlli prosesində qanunun aliliyinin təmin olunması mütləq xarakter daşıyır. Bütün beynəlxalq ictimaiyyət, müvafiq təşkilatlar, ATƏT-in Minsk qrupunun həmsədr ölkələri, əcnəbi hüquqi və fiziki şəxslər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hüquqi aspektləri ilə bağlı Azərbaycanın təqdim etdiyi digər fundamental hüquqi hesabatları nəzərə almalıdır.

Hikmət Hacıyev konfransda bir daha diqqətə çatdırdı ki, Azərbaycan ərazilərinin işğal altında saxlanması heç zaman Ermənistanın güddüyü siyasi nəticələri verə bilməz: "1993-cü ilin aprelində Kəlbəcərin işğalı ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 822 saylı qətnamədə işğalçı qüvvələrin zəbt olunmuş ərazilərdən çıxarılması üzrə təxirəsalınmaz tədbirlər barədə cədvəlin hazırlanması tapşırılıb. Lakin ATƏM-in (hazırda ATƏT) Minsk Konfransının sədri Mario Raffaellinin 1993-cü il 27 iyul tarixli hesabatında qeyd olunduğu kimi, 1993-cü il 22-23 iyul tarixlərində ATƏM-in Minsk Konfransı 9 iştirakçı ölkəsinin bu məqsədlə Romada keçirdiyi iclas zamanı ermənilər, əvvəlcədən Ağdamı işğal etmək niyyətində olmadıqlarını vəd etsələr də, bu addımı atdılar.

Ağdamın işğalı ilə bağlı dünya ictimaiyyəti yekdil mövqe ifadə etdi. ATƏM-in Minsk qrupunun 9 ölkəsi adından bu "hücum qətiyyətlə pislənmiş", "işğal olunmuş ərazilərdən qoşunların çıxarılmasına çağırış etmişdir".

1993-cü il 29 iyul tarixində BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi 853 saylı qətnamədə "işğalçı qüvvələrin Ağdam rayonu və digər yenicə işğal edilmiş Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması" tələb edildi. Lakin Ermənistan tərəfi buna da tabe olmaqdan yayındı.

Beləliklə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ həmin mərhələdə nizama salınmasına dair siyasi fürsətlərdən istifadə etməyə, buna dair yekdilliklə qəbul edilmiş BMT qərarlarının yerinə yetirilməsinə imkan verilməyib və yeni-yeni Azərbaycan ərazilərinin işğalı nəticəsində hazırkı ağır vəziyyət yaradılıb.

Ermənistan tərəfinin tutduğu qeyri-konstruktiv mövqe sayəsində həmin başlıca şərtə əməl olunmaması münaqişənin bu günədək nizama salınmamasının əsas səbəbi olaraq qalır. İşğalçı Ermənistan Cenevrə konvensiyaları ilə üzərinə düşən öhdəliklərini kobud şəkildə pozaraq Ağdam rayonunda coğrafi adların dəyişdirilməsi, oradakı mülkiyyətin talan edilməsi və ərazilərin yandırılması kimi qeyri-qanuni əməllərini davam etdirir.

Azərbaycan ərazilərinin işğal altında saxlanması heç zaman Ermənistanın güddüyü siyasi nəticələri verə bilməz və işğala əsaslanan status-kvo təcavüzkarın özünü təcridinin və bugünkü sistematik sosial-iqtisadi və demoqrafik böhranının əsas səbəblərindəndir. Azərbaycan ərazilərinin işğalına son qoyulması və Ermənistan qoşunlarının dərhal və qeyd-şərtsiz o yerlərdən çıxarılması hərtərəfli regional əməkdaşlıq üçün imkanlar aça və davamlı sülhün təmin olunmasına töhfə verə bilər.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# Azərbaycan sülh elçisi, Ermənistan "kamikadze" rolunda

*Əvvəli 1-ci səh.*

Paşinyanın Brüssel görüşləri əslində, reallıqdan uzaq və lətifəvari idi. Məsələn, onun Trampla görüşü erməni əsilli pornoulduz Kim Qardaşyanın üslubunda qazanılan "qələbə"dən savayı bir şey deyildi. Paşinyanın NATO liderlərinin qucağına "məxməri" tullanışları və eyni zamanda, Kremllə münasibətləri dərinləşdirmək niyyətini bəyan etməsi çoxüzlü siyasi gedişlərdən daha çox cavabı tapılması mümkün olmayan tapmacaya çevrildi. Rus mətbuatı istehza ilə Paşinyanın yeni kadrlarının Soros, Demokratiyaya Dəstək Milli fondlarının və s. Qərb qurumlarına bağlı olduğunu qeyd etdi. Bu gün Rusiya KİV-i məktəblərin birində Rusiya bayrağına qeyzlənən Papikyanın nazir təyin edildiyini, o biri nazir Tandilyanın Rusiyadan aralanmağı təlqin etdiyini bir sual kimi ortaya qoyur. Bir sözlə, Brüssel Paşinyanın siyasi lambadasını dəyərləndirmədi və əlavə yardımların eşqi ilə yandığını dilə gətirmədi.

Ermənistanda baş verənlərə "gözün üstə qaşın var" deyə bilməyən rəsmi rus saytları müəmmalı bir tərzdə sussalar da, artıq bəzi siyasi şərhçilər və bir neçə rusdilli sayt "məxməri erməni inqilabı"nın ilk növbədə, Ermənistanda Rusiya ilə bağlı siyasilərin və biznesmenlərin xəlbirlənməsi prosesinin getdiyini və rus mətbuatında erməni mövzusuna qoyulan ciddi qadağaların mövcud olduğunu dilə gətirirlər. Şimal qonşumuzun böyük KİV ordusu Ermənistanı Rusiyaya xəyanətdə suçlamaq iqtidarında deyil. Ona görə ki, bütünlüklə Rusiya KİV-də ağlasığmaz dərəcədə möhtəşəm gücə malik olan erməni əsilli mətbuat təmsilçiləri istənilən natiqi doğulmağına peşman etmək gücünə qadirdirlər. Ən maraqlısı isə odur ki, hətta Lələtəpədən Paşinyanın qulağının dibinə çırpılan rus şapalağının səsi də Moskva KİV-də nədənsə əksini tapmadı, əksinə, bir neçə nüfuzlu sayt və telekanal Kremlə barmaq silkələdi.

Halbuki erməni siyasi elitası Moskvadakı dayaqları hesabına Kremlə sədaqət nümayiş etdirdiyi kimi sürətlə əmzikli məsum uşaq qiyafəsində Qərbin qucağına oturmağa çalışır və İrəvanda Rusiyaya bağlı adamları "məxməri damğa"larla həbsə atır. İqtisadi islahatlara isə nə pul, nə də maraq hiss olunur. Hiss olunan "məxməri faşizm"in yeni siması, Qarabağ münaqişəsini unudulanadək uzatmaq hikkəsinin Paşinyanın işğalçı faşist ambisiyaları ilə üst-üstə düşməsidir. Ermənistanda ötən həftə ərzində baş verənlərin qısa məzmunu belədir.

Azərbaycan Prezidenti isə Brüsseldən qayıtdıqdan sonra Bakıda İtaliyanın Prezidenti ilə görüşdü və iki ölkə arasında ciddi qarşılıqlı iqtisadi müqavilələr imzalandı. Səfər çərçivəsində keçirilən İtaliya-Azərbaycan biznes forumunda qarşılıqlı əməkdaşlığın potensial imkanları geniş müzakirə olundu, ölkəmizin iqtisadiyyatının şaxələndirilməsində, enerji, ətraf mühitin qorunması sahələrində yenidən dəyərləndirmə ilə bağlı perspektiv layihələrlə əlaqədar mövzulara toxunuldu. Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsində müxtəlif regionlarda kənd təsərrüfatının inkişaf etdirilməsində italyanlar təcrübə və imkanlarını təklif etdilər.

Biznes forumda həmçinin logistika, nəqliyyat və infrastruktur sahələrində uzunmüddətli müştərək layihələrin reallaşdırılmasının vacibliyi vurğulandı, liman və infrastrukturlar üçün informasiya sahəsində əməkdaşlığın zəruriliyi qeyd olundu. Belə qənaətə gəlindi ki, iki ölkənin müştərək iqtisadi maraqları iqtisadiyyatın bir çox sahələrində geniş əməkdaşlığın qurulmasına əlaqə yaradır. İtaliya Prezidenti onu da etiraf etdi ki, strateji baxımdan regionda önəmli rola malik olan Azərbaycan Xəzər dənizi, Qara dəniz, Aralıq dənizi üçlüyünün iqtisadi potensialının inkişafında yeni bir səhifənin baş qəhrəmanı ola bilər: "Tarixi dostluğumuz və tərəfdaşlığımız ona imkan verir ki, dənizlərimiz arasında körpüləri birlikdə ucaldaq".

Ermənistan isə köhnə qaydada bütün ölkələr arasında körpüləri uçurmağa davam edir. Paşinyan bir yandan İrəvənda "məxməri inqilab"ın bayrağını qaldırır, digər tərəfdən bütün qonşularını qarşıdurmaya və müharibələrə sövq edir. Bir tərəfdən Ermənistanda Rusiyaya bağlı siyasiləri və sahibkarları çarmıxa çəkirlər, digər tərəfdən Rusiyadan erməni əsilli biznesmenləri yenidən İrəvana yığıb əməkdaşlıq təklif edirlər. Bu da şimal qonşusunu həm diksindirir, həm də qeyzləndirir.

"Məxməri inqilab"ın bayrağını qaldıran Paşinyan Qarabağdan savaş ritorikasında danışır, hələ tərəfdaşlarının kim olduğunu dəqiqləşdirməsə də, hamıya bir tərəfdən əməkdaşlıq təklif edir, digər tərəfdən də hədə biçir.

Azərbaycan isə Qafqazda sülhə təminat verən yeganə qüdrətli ölkə kimi öz müqəddəs missiyasını yerinə yetirir. Bütün bölgənin, qitənin maraqlarına təminat verən sülh addımlarını atır. Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin Fransa Prezidenti Emmanuel Makronun dəvəti ilə iyulun 19-20-də bu ölkəyə səfəri xüsusi əhəmiyyət kəsb edir. Qonşu işğalçı dövlət müharibə ritorikası ilə özünü beynəlxalq aləmdə nüfuzdan saldıqca, Azərbaycan düşünülmüş addımlar atır, tərəfsizliyini qorumaqla yanaşı, iqtisadi əməkdaşlığın yeni üfüqlərini genişləndirir. Yelisey sarayında Fransa Prezidenti Emmanuel Makronla Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini müzakirə etməsi, münaqişənin həlli ilə bağlı mövqelərini bildirilməsi əslində, Paşinyan rejiminə vurulan ağır zərbədir.

İki günlük səfərdə 11 fransız şirkətinin təmsilçiləri ilə keçirilən səmərəli görüşlər Azərbaycanın iqtisadi potensialının bariz nümunəsidir. Ölkələrimiz arasında imzalanan sazişlər qarşılıqlı iqtisadi əlaqələri daha da dərinləşdirməyə imkan yaradır. Azərbaycanın iqtisadi imkanlarının Fransanın üzünə açılması bir daha onu sübut edir ki, ölkəmiz Avropa dəyərlərinə hörmətlə yanaşır, sülhün, əmin-amanlığın və iqtisadi əlaqələrin inkişafında maraqlıdır.

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

# Xalq artisti Rasim Balayevin 70 illik yubileyi qeyd edildi






AMEA Mərkəzi Elmi Kitabxanası (MEK) xalq artisti, Prezident təqaüdçüsü, "Şöhrət" ordenli Rasim Balayevin 70 illik yubileyini qeyd edib. "Rasim Balayev. Milli yaddaşda qəhrəman obrazı" adlanan tədbirdə Mədəniyyət Nazirliyinin, AMEA-nın, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının, "Veysəloğlu" şirkətlər qrupunun əməkdaşları, tanınmış mədəniyyət və incəsənət xadimləri, aktyorun sənət dostları, doğmaları, Türkiyədən olan sənətçilər, KİV nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçılarını salamlayan MEK direktoru Leyla İmanova bildirdi ki, kitabxananın fondlarında "Rasim Balayev" kateqoriyasına aid edilmiş kitab, jurnal, dissertasiyalar, eləcə də Rasim Balayevin iştirakı ilə çəkilmiş filmlər, intervülər və verilişlər elektron kataloq ilə yanaşı, Milli Rəqəmsal Bazasına da daxil edilmiş və istifadəçilərin ixtiyarına verilmişdir. L.İmanova qeyd edib ki, MEK informasiya istehsalçısı olaraq, nəzdində fəaliyyət göstərən Vikipediya Metodik Mərkəzi, "Qorqud" viki-könüllülər qrupu "Şəms" Tərcümə Xidmətləri Mərkəzi ilə birlikdə Rasim Balayevin azərbaycandilli vikipediyadakı səhifəsini redaktə etmiş, ərəb, fars, türk və gürcü dilli vikipediyalarda viki-səhifəsini yaratmış, bununla da informasiya məkanında mövcud boşluq qismən də olsa aradan qaldırılmışdır. Eyni zamanda, MEK tərəfindən Rasim Balayevə həsr olunan film hazırlanmış və MEK-in Youtube kanalında yerləşdirilmişdir. L.İmanova çıxışında Rasim Balayevin iştirakı ilə Anar, Tofiq Tağızadə, Eldar Quliyev, Ənvər Məmmədxanlı, Həsən Seyidbəyli, İsa Hüseynov, Ramiz Həsənoğlu kimi korifeylərin yaratdıqları Beyrək, Babək, Nəsimi obrazlarının, dünənin qəhrəman obrazlarının gənc nəslə təsir imkanlarından, kino klassikasına çevrilmiş Azərbaycan filmlərinin bərpasından, gənc nəslin informasiya qavrayışı özəlliklərinin nəzərə alınması ilə əsrlərdən, zamanlardan keçən Nəsimi, Beyrək, Babək, Mirzə Fətəli Axundov, Cavid kimi layiqli azərbaycanlı obrazlarını özündə cəm edən vahid kiber-obrazın yaradılmasından danışıb.

ADMİU-nun Səhnə danışıq kafedrasının müəllimi, Rasim Balayevin tələbəsi olmuş Əlizaman İknurun təqdimatından sonra MEK-in xalq artistinin həyat və yaradıcılığını əks etdirən "Rasim Balayev. Milli yaddaşda qəhrəman obrazı" adlı video nümayiş olunub.

Mədəniyyət Nazirliyinin nümayəndəsi Elşad Əliyev görkəmli aktyorun sənətindən, yaradıcılığından danışıb. Yubilyarı Mədəniyyət Nazirliyinin rəhbərliyi adından təbrik edən E.Əliyev aktyora can sağlığı, yaradıcılıq uğurları arzulayıb.

Sonra musiqili tədbirin tərtibatına uyğun olaraq incəsənət və mədəniyyət xadimlərinin çıxışları və ifaları dinlənilib. Çıxış edənlərdən xalq artistləri Nurəddin Mehdixanlı, Hacı İsmayılov, Azər Paşa Nemətov, əməkdar incəsənət xadimləri şair Baba Vəziroğlu, kinorejissor Şeyx Əbdül Mahmudov, əməkdar artistlər İstanbul şəhər bələdiyyə teatrının müdir müavini Məlahət Abbasova, bəstəkar-müğənni Qasım Xəlilov, Ötkəm İsgəndərov, Musiqili Dram Teatrının aktyoru Nadir Xasıyev Rasim Balayev şəxsiyyətinin və sənətinin parlaq cizgiləri haqqında öz düşüncələrini bölüşüblər. Muğam ifaçılarından xalq artistləri Zabit Nəbizadə, Teyyub Aslanov, əməkdar artist Elnarə Abdullayeva, muğam müsabiqəsinin qalibi Abgül Mirzəliyev, xanəndə Elbrus Niftəliyev, bəstəkar-müğənni Qasım Xəlilov Azərbaycan musiqisinin ecazkar nümunələri ilə məclisi rövnəqləndiriblər. Xalq artistinin tələbə yoldaşları Vaqif Əsədov, Elmi Mirzəliyev aktyor haqqında maraqlı və xoş xatirələrini söyləyiblər. "Veysəloğlu" şirkətlər qrupu adından şirkətin vitse-prezidenti İlqar Nuri də çıxış edərək xalq artisti Rasim Balayevi yubileyi münasibəti ilə təbrik edib.

Sonda xalq artisti Rasim Balayev öz ürək sözlərini bölüşüb, yubiley gecəsinin təşkilatçısı olan MEK-ə və bütün sənət dostlarına və tədbir iştirakçılarına xüsusi minnətdarlığını və ehtiramını bildirib.

Məlumat üçün bildirək ki, "Rasim Balayev" adlı elektron resurs MEK istifadəçilərinin ixtiyarındadır.

***"Azərbaycan"***

## B İ L D İ R İ Ş

**"Azərişıq"ASC tərəfindən 28 iyun 2018-ci il tarixində Sərfiyyat mallarının satın alınması** məqsədilə keçirilmiş Açıq tender üzrə təqdim olunmuş iddiaçıların təklifləri Tender komissiyası tərəfindən qiymətləndirilmişdir. Tender komissiyasının qərarına əsasən, müvafiq lot üzrə "ELEKTRİK TƏCHİZAT" MMC şirkəti qalib elan olunmuş və satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

**Bakı Şəhər İcra Hakimiyyəti Memarlıq və Şəhərsalma Baş İdarəsi dəftərxana ləvazımatlarının kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir**

Maraqlanan şəxslər 492-67-55 telefon nömrəsi ilə əlaqələndirici şəxs Rəşad Zalovla əlaqə saxlaya bilərlər.

Kotirovka prosedurasında iştirak etmək üçün sənədlər 30.07.2018-ci il tarixə qədər qəbul olunur

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

**Bakı Şəhər İcra Hakimiyyəti Memarlıq və Şəhərsalma Baş İdarəsi təsərrüfat mallarının kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir**

Maraqlanan şəxslər 492-67-55 telefon nömrəsi ilə əlaqələndirici şəxs Rəşad Zalovla əlaqə saxlaya bilərlər. Kotirovka prosedurasında iştirak etmək üçün sənədlər 30.07.2018-ci il tarixə qədər qəbul olunur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

**Bakı Şəhər İcra Hakimiyyəti Aparatı bərk inventarların, digər maşın və avadanlıqların kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir**

Maraqlanan şəxslər 492-63-90 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka prosedurasında iştirak etmək üçün sənədlər 30.07.2018-ci il tarixə qədər qəbul olunur.

***Tender komissiyası***

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

### Suriyada terror aktı nəticəsində 38 nəfər həlak oldu



Dünən Suriyanın cənubunda yerləşən Suveyda şəhərində baş vermiş terror aktı nəticəsində 38 nəfər həlak olmuşdur. Bu barədə "RİA Novosti" agentliyi xəbər verir.

Bildirilir ki, hadisə zamanı 30-dan çox adam yaralanmışdır. İlkin məlumata görə, intiharçı-terrorçu şəhər bazarında bombanı partlatmışdır. 2 intiharçı partlayıcı qurğunu işə salmazdan əvvəl zərərsizləşdirilmişdir.

Bundan əlavə, şəhərin yaxınlığında yerləşən Duma şəhərində hücuma hazırlaşan dörd terrorçu məhv edilmişdir.

### Çində arxeoloqlar 136 qədim qəbir aşkar ediblər



Çinli arxeoloqlar Şandun əyalətində 136 qədim qəbir aşkar etmişlər. Məzarlar Dahan kəndi yaxınlığındadır. Orada ötən ilin oktyabrından qazıntılar aparılır. Bu barədə "İnterfaks" agentliyi xəbər verir.

Məlumata görə, bu müddətdə alimlər 100 kiçik və 36 iri qəbir aşkar edərək onlardan 800-dən çox artefakt, o cümlədən keramika məmulatları, nefritdən, sümüklərdən və bürüncdən hazırlanmış əşyalar çıxarmışlar. Alimlərin qənaətinə görə, məzarlar ali təbəqədən olan şəxslərə məxsusdur. Lakin onların milliyyətini hələ ki müəyyənləşdirmək mümkün olmamışdır.

Tədqiqatçıların fikrincə, tapıntılar həmin regionda Şərqi Çjou (eramızdan əvvəl 771-221-ci illər) sülaləsinin idarəçiliyi dövründə mədəniyyətin formalaşmasını və inkişafını daha yaxşı anlamağa kömək edəcək.

### Liviyalı hərbçilər İŞİD-in yerli özəyinin başçısını məhv etdilər



Liviyanın Benqazi şəhərində hökumət qoşunları ölkədə fəaliyyət göstərən İŞİD terrorçu qruplaşmasının yerli özəyinin başçısını məhv etmişlər. Mahmud Bəraasi terrorçuların hərbi qulluqçularla toqquşması zamanı öldürülmüşdür. Bu barədə TASS agentliyi xəbər verir.

Məlumata görə, hazırda Liviyada iki hökumət və onlarca silahlı birləşmə fəaliyyət göstərir. Bu cür vəziyyət 2011-ci ilin fevralından davam edir. Həmin vaxt ölkədə Müəmmər Qəzzafi rejiminə qarşı başlamış etirazlar vətəndaş müharibəsinə çevrilmişdi.

### Meksikada yarım il ərzində 11 min adam öldürülüb




Cari ilin əvvəlindən Meksikada 6 ay ərzində banditlər 11 mindən çox adam öldürmüşlər. Bu, ötən ilin həmin dövrü ilə müqayisədə 28 faiz çoxdur. Məsələn, qadınların qətllərinin, habelə narkotik maddələrlə alverin sayında artım qeydə alınmışdır. Bu barədə TASS agentliyi xəbər verir.

Bu yaxınlarda ölkədə aparılmış sorğunun nəticələrinə görə, meksikalıların təxminən 75 faizi həyatının təhlükədə olduğunu hesab edir.

Meksika əhalisi 127 milyondan çoxdur. Ötən il ölkədə təxminən 29 min nəfər bandit dəstələrinin qurbanı olmuşdur.

### Yunanıstanda meşə yanğınları qurbanlarının sayı 79-a çatdı



Yunanıstanın paytaxtı Afinanın ətrafında və ölkənin digər rayonlarında meşə yanğınları nəticəsində həlak olanların sayı 79 nəfərə çatmışdır. 187 nəfər, o cümlədən 23 uşaq xəsarət almışdır. Bu barədə "Röyter" agentliyi xəbər verir.

Məlumata görə, hazırda paytaxtın Attika vilayətindəki xəstəxanalarda 71 nəfər müalicə olunur. Onlardan 10-nun vəziyyəti ağırdır.

Mati kurort şəhərciyinin tam olaraq Yer üzündən silindiyi bildirilir. Həmin rayonda yerləşən Pendeli dağının ətəyində yanğın davam edir.

Ölkədə üçgünlük matəm elan olunmuşdur.

### Tramp Aİ-yə rüsumlarla bağlı təklif irəli sürdü

ABŞ Prezidenti Donald Tramp Avropa İttifaqının (Aİ) hakimiyyət orqanlarına eyni vaxtda rüsumlardan, ticarət maneələrindən və subsidiyalardan imtina etməyi təklif etmişdir. Bu barədə Amerika lideri tvitterindəki səhifəsində məlumat vermişdir.

Dünən Vaşinqtona səfər edən Avropa İttifaqı nümayəndələri ticarət sazişini müzakirə etmişlər. Müzakirələrin nəticəsi barədə hələ ki məlumat verilmir.

Amerika Prezidentinin fikrincə, ABŞ-ın və Aİ-nin rüsumları, maneələri və subsidiyaları ləğv etməsi "azad bazara və ədalətli ticarətə" gətirib çıxara bilər.

ABŞ lideri Avropa Komissiyasının başçısı Jan Klod Yunkerlə də görüş keçirmişdir.

### Türkiyə İranı dəstəklədi

Türkiyə ABŞ Prezidenti Donald Trampın İrana qarşı tətbiq olunacaq yeni sanksiyalarla bağlı hədələrini dəstəkləmir. Bu barədə Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu məlumat vermişdir.

Nazirin dediyinə görə, hətta Aİ və Böyük Britaniya da sanksiyaları dəstəkləsə, Ankara bu tədbirlərə qarşı çıxış edəcək. "Biz İrana qarşı sanksiyaları dəstəkləmirik. Biz ABŞ-ın, Avropa İttifaqının və Böyük Britaniyanın İrana qarşı sanksiyalarına qoşulmayacağıq" - deyə Çavuşoğlu bildirmişdir.

Bundan əvvəl Tramp qeyd etmişdir ki, İran ABŞ-ı hədələməkdə davam etsə, "görünməyən fəsadlarla" üzləşəcək. İran hökuməti isə Amerika liderinə "odla oynamamağı" tövsiyə etmişdir.

### Gəncə Şəhər İcra Hakimiyyətinin başçısına qarşı sui-qəsd planlarını hazırlamış şəxslərdən daha biri məhv edilib



Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə qarşı Yunis Səfərovla birlikdə sui-qəsd törətmək planlarını hazırlamış şəxslərdən daha biri məhv edilib. Hüquq mühafizə orqanlarından AZƏRTAC-a bildiriblər ki, Cinayət Məcəlləsinin terrorçuluq, qəsdən adamöldürmə və dövlət xadiminin həyatına sui-qəsd etmə maddələrinə görə axtarışda olan Gəncə şəhər sakini Sərxani Ağa Hüseyn oğlu silahlı müqavimət göstərdiyinə görə "Aslanlar" qrupu tərəfindən öldürülüb.

Müəyyən edilib ki, o, 2016-cı ildə Suriya ərazisində silahlı birləşmələrin tərkibində döyüş təlimi keçib, mütəmadi olaraq İrana səfərlər edib.

### Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində keçirilmiş monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyulun 25-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində keçirilmiş monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Martin Şuster keçiriblər.

Ermənistan tərəfindən isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Oqnyen Yoviç, Mixail Olaru və Saymon Tiller aparıblar.

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının sədri Tağı Əhmədova əzizi

**SAHİL ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərbaycan" nəşriyyatının kollektivi Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının sədri Tağı Əhmədova əzizi

**SAHİL ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının sədri Tağı Əhmədova əzizi

**SAHİL ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının sədri Tağı Əhmədova əzizi

**SAHİL ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Oruc Zalov Tağı Əhmədova əzizi

**SAHİL ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin rəhbərliyi və kollektivi Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının sədri Tağı Əhmədova əzizi

**SAHİL ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Memarlar İttifaqının İdarə Heyəti Memarlar İttifaqının İdarə Heyətinin üzvü Nizami Qasımova əzizi

**ŞAHSUVAR BAXŞƏLİ OĞLU QƏMBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Kürdəmir Rayon Məhkəməsinin sədri Müseyib Bayramov və məhkəmənin kollektivi Bakı Apelyasiya Məhkəməsinin hakimi Raqib Qurbanova anası

**ƏSMƏGÜL XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8580
Sifariş 2190